www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 noyabr 2015-ci il Cümə № 247 (6275) Qiymәti 40 qəpik

**Xəbər**

## Bahalaşmanın yeni dalğası başladı

yazısı səh.6-da

**Gündəm**

### Avropa Şurasından Ermənistana qəfil zərbə



"Azərbaycanın suverenliyi tam bərpa olunmalıdır"; AŞ PA-nın qış sessiyasında işğalçı ölkəni Qarabağ məsələsinə görə daha ağır zərbə gözləyir

yazısı səh.11-də

### Binəqədidə sahibkarı ölümdən icra başçısı qurtardı

yazısı səh.10-da

### "Faiz çete"si ölkədən milyardları necə çıxarıb...

yazısı səh.10-da

### "Atletlər kəndi"ndəki qəza ilə bağlı yeni şok bilgilər - bibioğlu kimdir?

yazısı səh.12-də

### Mirqədirovun məhkəməsinin qapalı keçirilməsi etiraz doğurdu

yazısı səh.3-də

### Azərbaycan 7 milyard dollar borca girir

yazısı səh.9-da

### Ümid Partiyasından Araz Əlizadə müəmmasına dair açıqlama

yazısı səh.7-də

### Siyasi fəalın qardaşı həbs edildi, iki qurum bəyanat yaydı

yazısı səh.4-də

### Avropa Məhkəməsindən Tofiq Yaqublu ilə bağlı önəmli qərar

yazısı səh.7-də

### Bakıda məhkəmə hakiminin maşını yandırıldı

yazısı səh.3-də

### Məşhur akademikin nəvəsinin ölümünün sirri

yazısı səh.4-də

### Elza Seyidcahan həbsə girməyə razılaşdı

yazısı səh.4-də

### NATO Rusiyanı hədələdi

yazısı səh.8-də

## İqtidarın "fil"ini qurban verməsinin daha bir sirri

# ANTİKORRUPSİYA HƏBSLƏRİ GENİŞLƏNİR - ZİYA MƏMMƏDOV NECƏ "XİLAS OLUB"

Prezidentdən məmurlara yeni xəbərdarlıq: "Heç kim toxunulmaz deyil"; xəbərlər var ki, iqtidar həbslərin miqyasını tam açıqlamır, hər gün şəhərin müxtəlif məhkəmələrinə "konvoy"la həbs olunmuş adamlar gətirilir və buradan da birbaşa Bakı İstintaq Təcridxanasına aparılır; nəqliyyat nazirinin niyə İsveçrəyə getməsi barədə sensasion iddialar...




yazısı səh.5-də

## Abbas Abbasovun "kassiri" işdən qovuldu - kredit qalmaqalı yenidən qızışır

İşdən çıxarılan Beynəlxalq Bankın Moskva filialının sədri Fuad Abdullayevin həbs ediləcəyi deyilir; onu "Milyarderlər ittifaqı" ilə nə bağlayır? - filialın kreditlər şöbəsinin direktoru sabiq vitse-primyerin qardaşı qızının əridir

yazısı səh.5-də



*Mehman Əliyev:*

### "Amerika Bakı ilə üç məsələdə razılaşıb"

yazısı səh.9-da



Monte Melkonyan

### Erməni terrorçusunun başı aranı qatdı - keçmiş döyüşçülər üz-üzə

yazısı səh.13-də



*Rza İbadov:*

### "Yaxın günlərdə Bakıya dönəcəyəm"

yazısı səh.7-də



## Prezidentin Gürcüstana rəsmi səfəri başladı, sənədlər imzalandı

**Azərbaycan prezidenti İlham Əliyevin Gürcüstana rəsmi səfəri başlayıb. Tbilisidəki Şota Rustaveli adına Aeroportda Azərbaycan prezidentini Gürcüstan Milli Təhlükəsizlik Şurasının katibi İrine İmereşvili və Prezident Aparatının rəhbəri David Pataraya qarşılayıblar.**

Sonra prezident Heydər Əliyevin Tbilisidə ucaldılmış abidəsini ziyarət edib, önünə əklil qoyub. Bunun ardınca isə dövlət başçısı Tbilisinin Qəhrəmanlar meydanında Gürcüstanın ərazi bütövlüyü uğrunda həlak olanların şərəfinə ucaldılmış abidəni ziyarət edib.

Gürcüstan Prezident Sarayında isə Azərbaycan prezidentinin rəsmi qarşılanma mərasimi keçirilib.

APA-nın Gürcüstan bürosunun məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyev həmkarı Georgi Marqvelaşvili tərəfindən qarşılanıb. Fəxri qarovul dəstəsinin rəhbəri hər iki prezidenti salamlayıb, sonra dövlət himnləri səsləndirilib. Gürcüstanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə prezident Georgi Marqvelaşviliyə təqdim olunub.

Sonra Gürcüstan və Azərbaycan prezidentlərinin təkbətək görüşü başlayıb. Daha sonra nümayəndə heyətlərinin iştirakı ilə görüş keçirilib. Görüşlərdən sonra siyasi, təhlükəsizlik, ticarət, iqtisadiyyat, tranzit, mədəniyyət, təhsil, elm sahələrində ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi barədə bəyannamə imzalanıb.

Bununla yanaşı, prezidentin rəsmi səfəri çərçivəsində Gürcüstanın baş naziri, Gürcüstan parlamentinin sədri və bütün Gürcüstanın Patriaxı II İlya ilə görüşləri nəzərdə tutulub.

Rəsmi səfər çərçivəsində İlham Əliyev Marneulidə yaşayan azərbaycanlılarla da görüşlər keçirəcək.

Səfər noyabrın 6-da başa çatacaq.

## Məhkəmə ANS-in MTRŞ-yə qarşı şikayətini təmin edib

**Bakı Apelyasiya Məhkəməsində ANS Teleradio Şirkətinin Milli Televiziya və Radio Şurasına (MTRŞ) qarşı şikayəti əsasında məhkəmə prosesi keçirilib. APA-nın məlumatına görə, hakim Nurəddun Mustafayevin sədrlik etdiyi iclasda apelyasiya şikayəti təmin olunub. Birinci instansiya məhkəməsinin qərarı ləğv edilib.**

Qeyd edək ki, sentyabrın 30-da MTRŞ-nin iclası keçirilib. Həmin iclasda ANS televiziyasının efirində həftə ərzində bazar günü istisna olmaqla, 1-5-ci günlər (bazar ertəsi-cümə günləri), saat 07:00-dan - 10:00-dək, şənbə günü 08:00-dan 10:00-dək yayımlanan "Salam, Azərbaycan" proqramının yayımının 06 oktyabr 2015-ci il tarixindən etibarən 10 (on) gün müddətinə dayandırılması barədə də qərar qəbul edilib.

"ANS" Teleradio Şirkət MTRŞ tərəfindən verilən qərarın qanunsuz hesab edilməsi barədə iddia tələbi ilə 1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsinə müraciət edib.

Şirkətə 1 saylı Bakı İnzibati İqtisad Məhkəməsində baxılıb və iddia təmin edilməyib.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.40 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

# Yunusların apelyasiya məhkəməsi başladı

## Vəsatətlərin heç biri təmin olunmadı; növbəti proses noyabrın 12-də olacaq



**Noyabrın 5-də Bakı Apelyasiya Məhkəməsində Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunus və həyat yoldaşı Arif Yunusun hökmündən verilmiş şikayətlə bağlı ilkin məhkəmə hazırlıq iclası keçirilib. Proses hakim İlqar Məmmədovun sədrliyi ilə başlayıb.**

Bu barədə "Yeni Müsavat"a Arif Yunusun vəkili Ramiz Məmmədov məlumat verib: "Məhkəmə hazırlıq iclası başa çatdı. Noyabrın 12-də, saat 14:00-da prosesin davam etdiriləcəyi barədə qərar qəbul edildi. Müdafiə tərəfi olaraq, məhkəmə iclasından razı qalmadıq. Vəsatətlərimiz təmin olunmadı. Sadəcə, vəsatətlərimizi dinlədilər, müzakirəsini belə aparmadılar. Leyla Yunus və Arif Yunusun səhhəti qənaətbəxş deyil. Arif Yunus müalicə müəssisəsinə yerləşdirilib. Orada müalicə alır. Leyla Yunusun da səhhəti acınacaqlı vəziyyətdədir. Almaniyadan gələn həkim onun bir ay, 40 gün müalicə alması ilə bağlı buradakı həkimlərin qarşısında tələb qoyub. Bu, avqustun 14-də olub. Həmin vaxt Leyla Yunusu müalicə müəssisəsinə yerləşdiriblər. Alman həkimi gedəndən sonra avqustun 19-da onu müalicə müəssisəsindən çıxarıblar. Alman həkimi özü ilə konkret dərmanlar gətirmişdi. O gedəndən sonra həmin dərmanlar verilmir, Leyla xanım müalicə də olunmur. Mətbuatda da xəbər getdi ki, Leyla Yunus əl ağacı ilə gəzir. Bu, həkimlərin göstərişi ilə olmuşdu. Leyla xanımın hazırda əl ağacını əlindən alıblar. İndi əl ağacı olmadan gəzir. Bu münasibəti anlaya bilmirik. Normal rəftardan da söhbət gedə bilməz. Onunla bağlı vəziyyətdən çox narahatıq".

Qeyd edək ki, Yunuslar ötən ilin iyul-avqust aylarında həbs olunublar. Qanunsuz sahibkarlıq, vergidən yayınma və sənədlərin saxtalaşdırılmasında ittiham olunurlar. Onlara qarşı dövlətə xəyanət ittihamı isə, ayrıca icraata götürülüb. Bu ittihamına baxılmadan L.Yunus 8 il yarım, A.Yunus isə 7 il müddətində azadlıqdan məhrum ediliblər.

❑ Cavanşir ABBASLI

## Azərbaycanda geomaqnit qasırğası

**Bir neçə gün əvvəl geomaqnit həyəcanlaşmalarının artacağı və müəyyən səviyyəli geomaqnit qasırğasının yaranacağını proqnoz özünü doğruldub.**

APA-nın məlumatına görə, bu barədə AMEA N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının elmi işlər üzrə direktor müavini Elçin Babayev bildirib.

E. Babayevin sözlərinə görə, noyabrın 2-dən başlayan geomaqnit həyəcanlanması ayın 3-də qasırğaya çevrilib, 4 noyabr tarixində də davam edən orta səviyyəli G1 sinifli (maksimum G5 olur) qasırğa noyabrın 5-də səngiməyə başlayıb. Bu günlər ərzində əsas geomaqnit indekslərindən biri olan Kp indeksi 5-ə çatıb (maksimum 9 olur və adətən nadir hallarda baş verir) və yuxarı en dairələrində gözəl təbiət hadisəsi olan qütb parıltısı - avrora borealis müşahidə olunub.

## QİCS-lə Mübarizə Mərkəzinə yeni direktor təyin edildi

**Səhiyyə Nazirliyinin Respublika QİCS-lə Mübarizə Mərkəzinə yeni direktor təyin edilib.**

Məlumata görə, Əbülfəz Abdullazadə mərkəzə yeni direktor təyin edilib. QİCS-lə Mübarizə Mərkəzinin bundan əvvəlki direktoru Esmira Alməmmədova isə mərkəzin direktor müavini vəzifəsinə təyin edilib.

Mərkəzdən sözügedən məlumatı təsdiqləyiblər. Qeyd edək ki, Ə.Abdullazadə bir müddət Səhiyyə Nazirliyinin Dərman Vasitələrinin Analitik Ekspertiza Mərkəzinin rəhbəri işləyib.

## Bakıda "Bayraq yürüşü" keçiriləcək



**Noyabrın 7-də saat 11:00-da Təhsil Nazirliyi Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü ilə əlaqədar "Bayraq yürüşü" keçirəcək. Virtualaz.org quruma istinadən bildirir ki, yürüşdə Təhsil Nazirliyinin əməkdaşları, universitet rektorları, millət vəkilləri, tanınmış ziyalılar, müəllimlər, KİV rəhbərləri, QHT nümayəndələri, ölkəmizin ümumi təhsil, məktəbdənkənar, ilk peşə, orta ixtisas və ali təhsil müəssisələrinin şagird və tələbələri iştirak edəcəklər.**

Yürüşün keçirilməsində əsas məqsəd milli atributlarımızın təbliği və iştirakçılara Dövlət Bayrağı Muzeyində tarixi Azərbaycan dövlətləri rəmzlərinin tanıdılmasından ibarətdir.

"Bayraq yürüşü"nün "Azneft" meydanından başlayaraq Dövlət Bayrağı Meydanınadək davam etdirilməsi nəzərdə tutulur.

## "Qiyamçı səfir"in yerinə təyinat oldu

**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) tərəfindən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Avropa İttifaqı yanında daimi müşahidəçisi vakant vəzifəsinə xüsusi tapşırıqlar üzrə səfir Akşin Mehdiyevin namizədliyi irəli sürülüb.**

XİN-dən verilən məlumata görə, 4 noyabr, 2015-ci il tarixində İƏT-in Ümumi Katibliyindən Xarici İşlər Nazirliyinə daxil olmuş notada İƏT-in baş katibi tərəfindən səfir Akşin Mehdiyevin İƏT-in Avropa İttifaqı yanında daimi müşahidəçisi vəzifəsinə qəbul edilməsi təsdiq edilərək onun vəzifə səlahiyyətlərinin icrasına 1 dekabr, 2015-ci il tarixindən etibarən başlayacağı bildirilib.

A.Mehdiyev 2001-2006-cı illərdə Azərbaycan Respublikasının Avropa Şurası, 2006-2014-cü illərdə isə BMT yanında daimi nümayəndəsi olub.

Xatırladaq ki, buna qədər İƏT-in Aİ yanındakı səfiri postunu "qiyamçı diplomat" Arif Məmmədov tuturdu.

## Axtarışda olan keçmiş nazir tutuldu

**Ukraynada Viktor Yanukoviçin prezidentliyi dövründə ədliyyə naziri vəzifəsində çalışmış və axtarışda olan Yelena Lukaş yaxalanıb. APA-nın "112.ua" saytına istinadən verdiyi məlumata görə, bu barədə Ukrayna Təhlükəsizlik Xidmətinin (SBU) sözçüsü Yelena Qitlyanskaya öz facebook səhifəsində yazıb. O, hadisə ilə bağlı xüsusi brifinq keçiriləcəyini bildirib.**

Qeyd edək ki, Maydana qarşı cinayətlərdə və xidməti vəziyyətindən istifadə edərək dövlət vəsaitlərini mənimsəməkdə ittiham olunan Yelena Lukaş 2015-ci il, sentyabrın 10-da rəsmən axtarışa verilib. Daha əvvəl isə məhkəmə açılmış cinayət işi çərçivəsində sabiq nazirə məxsus 3 evə həbs qoyub.



Zakir Qaralov

## Baş prokuror Rusiyada azərbaycanlı qadının döyülməsini nəzarətə götürdü

**Sankt-Peterburqda azərbaycanlılara qarşı törədilmiş cinayətlə əlaqədar Rusiyanın baş prokuroruna müraciət ünvanlanıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycanın baş prokuroru Zakir Qaralov 2015-ci ilin iyulunda Sankt-Peterburq şəhərində polis əməkdaşının sahibkarlıq fəaliyyəti ilə məşğul olan Rusiya Federasiyasının vətəndaşı İradə Rəcəbəliyevaya və onun yetkinlik yaşına çatmayan övladlarına qarşı zorakılıq hərəkətlərinə yol verməsi ilə əlaqədar Rusiya Federasiyasının baş prokuroru Yuriy Çaykaya müraciət edib.

Müraciətdə azərbaycanlı ailəsinə qarşı törədilmiş qanunazidd hərəkətlər qəti şəkildə pislənərək, polis əməkdaşı tərəfindən yol verilmiş cinayət hadisəsinin ictimaiyyət arasında rezonans doğurması bildirilməklə cinayət-prosessual qanunvericiliyin və beynəlxalq hüquq normalarının tələblərinə uyğun olaraq obyektiv və ədalətli şəkildə araşdırma aparılması və həmin hərəkətlərə qısa müddətdə hüquqi qiymət veriləcəyinə əminlik ifadə olunub.

Xatırladaq ki, İ.Rəcəbəliyevanın Rusiyada məruz qaldığı fiziki və mənəvi işgəncələr barədə Azərbaycan oxucusuna ilk dəfə virtualaz.org saytı məlumat verib.

Saytın 4 noyabr sayında "Polis azərbaycanlı qadına Rusiyada belə divan tutdu..." başlıqlı məqalədə sahibkarlıqla məşğul olan İ.Rəcəbəliyevanın və onun yetkinlik yaşına çatmayan iki övladının Sankt-Peterburq şəhərində polis zabiti tərəfindən vəhşicəsinə döyülməsindən və təhqir olunmasından bəhs edilirdi.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Mirqədirovun məhkəməsinin qapalı keçirilməsi etiraz doğurdu



**Xəbər verdiyimiz kimi, noyabrın 4-də "Ayna Zerkalo" qəzetinin həbsdəki əməkdaşı Rauf Mirqədirovun ilkin məhkəmə hazırlıq iclası keçirilib. Prosesin sonunda növbəti iclasların qapalı keçirilməsi barədə qərar qəbul edilib. Məhkəmə heyəti bu qərarı jurnalistin ittiham olunduğu maddədə dövlət sirrinin olması ilə əlaqələndirib.**

**Müdafiə tərəfi isə qəbul edilən qərarın əleyhinədir. Bu barədə "Yeni Müsavat"a açıqlama verən R.Mirqədirovun vəkili Fuad Ağayev məhkəmə heyətinin qanunsuz qərar qəbul etdiyini bildirdi:** "Ümumiyyətlə, Rauf Mirqədirovla bağlı məhkəmə iclasının hansısa bir hissəsinin indidən qapalı keçirilməsinə dair qərar tamamilə qanunsuzdur. Bu iş materiallarında dövlət sirri olan hər hansı bir məlumat yoxdur. Orada yalnız 2-3 sənəd var ki, guya onlar məxfidir. Məhkəmənin qərarından heç nə tam aydın olmadı. Həmin qərar mənə təqdim edildikdən sonra dolğun məlumat verə bilərəm. Məhkəmə baxışının hansı hissəsinin qapalı keçiriləcəyi məlum deyil. Azərbaycan Respublikası siyasi və vətəndaş hüquqları haqqında beynəlxalq aktın iştirakçısıdır. BMT-nin İnsan hüquqları və əsas azadlıqları haqqında Konvensiyanın iştirakçısıdır. Konvensiyanın 6-cı maddəsində göstərilir ki, cinayət ittihamları üzrə məhkəmə baxışları ədalətli, qərəzsiz, müstəqil məhkəmələr tərəfindən açıq aparılmalıdır. Bu, ümumi yanaşmadır. Burada əlbəttə istisnalar var. Amma bu istisnalar qanunda nəzərdə tutulub və hansı formada həyata keçirilməli olduğu



**Fuad Ağayev:** "Məhkəmə başqa bir funksiyanı həyata keçirir"



**Mirvari Qəhrəmanlı:** "Məhkəmənin açıq keçirilməsi vacibdir"

qeyd olunub. Azərbaycan Cinayət Məcəlləsinin 200-cü maddəsində göstərilib ki, dövlət sirrini açıqlayan sübutlar qapalı məhkəmədə keçirilməlidir. Kimsə ağır cinayətlərdə təqsirləndirilir deyə məhkəmə baxışı qapalı şəkildə keçirilə bilməz. Bəlkə biz bilmirik, hansısa sənəddə dövlət sirri var. Əgər varsa, həmin sənədlərin tədqiq olunması mərhələsi qapalı şəkildə keçirilsin".

**Vəkil mətbuatın və təqsirləndirilən şəxsin yaxınlarının prosesə buraxılmamalarına da toxundu:** "Mətbuat və Rauf Mirqədirovun yaxınlarının məhkəməyə girişlərinə qadağalar qoyulmamalıdır. Bu onu göstərəcək ki, məhkəmə ədalət mühakiməsi funksiyasını həyata keçirmir. Biz bunun qəti əleyhinəyik. Qanun təkcə ittiham tərəfi üçün yazılmır. Dövlət sirrinə aid olmayan sübutların, istintaqın dili ilə desək, Ermənistan vətəndaşı Samirin göndərdiyi disklərin qapalı məhkəmə iclasında tədqiq olunması yolverilməzdir. Son məhkəmədə verdiyimiz vəsatətlərin birində qeyd etdik ki, ittihamda Laura Baqdasaryan, David Şahnazaryanın Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları olduğu bildirilir. Bu şəxslər heç dindirilməyiblər. Bunun üçün cəhd də göstərilməyib. Azərbaycan və Ermənistan Minsk Konvensiyasının iştirakçılarıdır. Bu konvensiya hüquq yardımı məsələlərinə aiddir. Konvensiya ona imkan verir ki, bir dövlət digər dövlətdə yaşayan hər bir insanın dindirilməsi üçün müraciət etməli və həmin ərazidə yaşayan şəxsləri dindirmək üçün dəvət eləsin. Hətta adı keçən şəxslərin ünvanları belə bəlli deyil. Sorğu üzrə Ermənistanın özü həmin şəxsləri aşkar etməli və barələrində məlumat verməlidir. Mən tələb edəndə ki, niyə vəsatətimi təmin etmirsiniz, hakim mənə deyir ki, ünvanlarını bilmirik. Əgər onların ünvanlarını bilmirlərsə, necə həmin şəxslərin xüsusi xidmət orqanlarının əməkdaşları olduğunu müəyyən edirlər?"

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı məhkəmənin qəbul etdiyi qərarın şübhələri bir az da artırdığı qənaətindədir:** "Bildiyim qədər dövlət sirri, dövlətin təhlükəsizliyi hesab olunan övladlığa verilmə, kommersiya sirri hesab olunan məhkəmə işləri qapalı keçirilə bilər. Amma Rauf Mirqədirovun "vətənə xəyanət" maddəsi ilə həbsi cəmiyyət üçün birmənalı qarşılanmır. Və cəmiyyət hesab edir ki, onun vətənə xəyanətdə ittiham olunması absurddur. Məhkəmənin qapalı keçirilməsi isə ictimaiyyətdə yaranmış şübhələri bir az da dərinləşdirir. Gələcəkdə məhkəmənin qəbul etdiyi qətnaməyə cəmiyyətin inamının yaranması üçün məhkəmənin açıq keçirilməsi vacibdir".

❑ **Cavanşir ABBASLI**

# Bakıda hakimin maşını yandırıldı

**Bakı Apelyasiya Məhkəməsinin hakimi İkram Şirinovun maşını yanıb. Olay Nəsimi rayonu ərazisində qeydə alınıb. Musavat.com-a daxil olan məlumata görə, hakimin yaşadığı Nizami küçəsi 118 ünvanında "Hundai Santa Fe" markalı, ağ rəngli maşını qəfildən alışıb. Maşının arxa təkəri tərəfdən başlayan yanğın ətrafdakı şəxslər tərəfindən söndürülüb. Yanmış maşın evakuator vasitəsilə ərazidən naməlum istiqamətə aparılıb.**



İkram Şirinov

Belə ehtimal var ki, hakimə məxsus olan maşın qəsdən yandırılıb.

Bakı Apelyasiya Məhkəməsi ilə əlaqə saxlayıb olayla bağlı hakim İkram Şirinovun da mövqeyini öyrənməyə çalışdıq. Lakin hakimin mövqeyini öyrənə bilmədik.

Baş Prokurorluğun mətbuat xidmətindən redaksiyamıza daxil olan məlumatda isə qeyd olunur ki, "bu barədə prokurorluq orqanlarına hər hansı bir məlumat daxil olmayıb".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Seçkidən sonra bir-birini təbrik edən siyasətçilər kimlərdir?

## "Təbrik edirəm, mehriban düşmən..."

**Parlament seçkiləri geridə qaldı. Qalibləri və məğlubları ilə bir yerdə. Amma bu ərəfədə ən maraqlı müzakirə məğlubların qalibləri təbrik etməsidir. Necə ki, bunu yaxşı siyasətçinin, yaxşı siyasətin əlifbası hesab edirlər. Yaxşı siyasət adamı məğlubiyyəti də qalibiyyət kimi yaşamağı bacarmalı və siyasi mədəniyyət nümayiş etdirməlidir.**

Məlumdur ki, dünyanın tanınmış siyasətçiləri daim imicmeykerlərlə, piar ustaları ilə işləyirlər. Onların asi olmaq, əsəbi jestlər etmək lüksləri yoxdur. Bu səbəbdən də bəzi addımları məhz publikaya hesablanmış, onun rəğbətini qazanmağa yönəlik olmalıdır. Məğlub siyasətçinin qalibi təbrik etməsi nə anlama gəlir? Siyasi dözümlülük, tolerantlıq, mədəniyyət... Bir seçici bundan başqa nə istəyə bilər ki?

Ən yadda qalan təbrik jestlərini yada salaq. 2013-cü ildə Gürcüstanda keçirilən prezident seçkilərindən az sonra Mixail Saakaşvilinin partiyasından olan namizəd David Bakradze düzənlədiyi brifinqdə hakim koalisiyanın namizədi Georgi Marqvelaşvilini qələbə münasibətilə təbrik edib. Bakradze bildirib: **"MSK-nın hesablaması Marqvelaşvilinin qələbəsini təsdiq edən exit-poll-un mənzərəsini çətin ki, dəyişə".**

Türkiyədəki 2014-cü il 10 avqust prezident seçkisində AKP namizədi Rəcəb Tayyib Ərdoğanın əsas rəqibi olmuş Ekmələddin İhsanoğlu öz rəqibini qələbə münasibətilə təbrik etmişdi. Müxalifətin vahid namizədi təbrik mətnində belə demişdi: **"Cəmi bir ay qabaq çox az adam məni tanıyırdı. Bu gün isə mənə seçicilərin təxminən 40 faizi səs verib. Bu rəqəm çox mühümdür və göstəricidir. Mən Rəcəb Tayyib Ərdoğanı qələbə münasibətilə təbrik edir, ona bu yolda uğurlar arzu edirəm".**

Okeanın o tayına nəzər salaq. 2008-ci ildə də Birləşmiş Ştatlarda keçirilmiş prezident seçkilərində məğlub olmuş respublikaçı namizəd Con Makkeyn rəqibi Barak Obamanı təbrik etmişdi. Con Makkeyn tərəfdarları önündə çıxışı zamanı bir müddət əvvəl Barak Obamaya zəng vuraraq onu təbrik etdiyini deyib: **"Biz qalib gəlmək üçün bacardığımız qədər gərgin mübarizə apardıq, lakin qələbəyə nail ola bilmədik. Bu, respublikaçıların deyil, mənim məğlubiyyətimdir. Buraxdığım səhvlərə görə təəssüf etmirəm. Bu seçki kampaniyası mənim həyatımın ən şərəfli anları idi".**



2012-ci ildə də B.Obama öz rəqiblərinin təbrik jestlərini qəbul edib. Bunlardan biri də prezident seçkilərində respublikaçıların namizədi Mitt Romni olmuşdu. Rəqibi Barak Obamanı qələbə münasibətilə təbrik edən Romni əvvəlcə Obamaya telefonla zəng vurub, daha sonra Bostonda seçiciləri qarşısında çıxış edib. **"Ölkə başqa lideri seçib, buna görə mən və həyat yoldaşım onun üçün dualar edəcəyik"** deyə, o bildirib.

Azərbaycan da belə nümunələrdən xali deyil. Noyabrın 1-də Milli Məclisə keçirilmiş seçkilərdə 8 saylı Binəqədi I seçki dairəsi üzrə deputatlığa namizədliyi qeydə alınmış Yalçın Baloğlanov bugünlərdə bəyanat yayıb. O bildirib ki, seçkiyə qoşulan bütün namizədlərin seçicilərin etimadını qazanmağa layiqli insanlar olmağı şübhə yaratmayıb. Seçkilərin yekunu Azay Quliyevin seçici etimadını daha çox qazanmasını təsdiq edib.

Qeyd edək ki, Yalçın Baloğlanov Azay Quliyevi qələbə münasibətilə təbrik edən sayca ikinci rəqibidir. Buna qədər Böyük Quruluş Partiyasının (BQP) namizədi kimi 8 saylı Binəqədi I seçki dairəsi üzrə deputatlığa namizədliyi qeydə alınmış Dürdanə Aslanzadə də Azay Quliyevi qələbə münasibətilə təbrik edib.

Modern.az-a açıqlamalarında qalib deputatlar kimlərdən təbrik aldıqlarını bildiriblər. Fazil Mustafa deyib ki, rəqibindən təbrik alıb: **"AMİP-in sədr vəzifəsini icra edən baş katibi Arzuxan Əlizadə zəng vurub məni təbrik edərək, uğurlar arzu etdi".**

60 saylı Salyan-Neftçala seçki dairəsində qələbəsi elan olunmuş Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı isə təbrik alıb: **"Rəqib namizədlərdən bir neçəsi məni təbrik etdi. Əfzələddin Zakirov, Rüstəm Məlikov, Səlimağa Səlimli zəng vurub məni qələbə münasibətilə təbrik etdilər".**

34 saylı Xətai ikinci seçki dairəsindən deputat olan Fuad Muradovun da rəqibləri siyasi mədəniyyət nümunəsi göstəriblər: **"Məni namizədlərin çoxu təbrik edib. 5 nəfər isə mənim xeyrimə namizədliyini geri götürmüşdü. Onlar da məni təbrik ediblər".**

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 247 (6275) 6 noyabr 2015

**KXCP Ali Məclisinin üzvü, keçmiş siyasi məhbus Elşən Əlisoyun qardaşı həbs olunub. Ağsu rayonunda məskunlaşan Babək Məmmədov on sutkalıq həbs alıb. Bu barədə musavat.com-a E.Əlisoy özü məlumat verib. O bildirib ki, noyabrın 1-də keçirilən parlament seçkilərindən sonra ailəsinə qarşı təzyiqlər daha da şiddətlənib:**

# Siyasi fəalın qardaşı həbs edildi, iki qurum bəyanat yaydı

## KXCP təmsilçisinin qardaşına on sutka həbs verilib; "Daha ciddi təzyiqlərin olacağını gözləyirəm"...

"Noyabrın 5-də qardaşım Babək Məmmədovu Ağsu Rayon Məhkəməsinin sədri Tahir İsmayılovun sifarişli qərarı ilə heç bir araşdırma aparmadan, yalançı bir şikayətçinin sözü ilə 10 sutka həbs ediblər. Bu hakimiyyət şəhid ailəsinə qarşı apardığı bu cür düşmənçiliklə əslində özünün mahiyyətini bir daha ortaya qoyur. Qarşıdan gələn günlərdə daha ciddi təzyiqlərin olacağını gözləyirəm. Ola bilsin ki, mənim özümü də şərləyib həbs edəcəklər".

**E.Əlisoy qeyd edib ki, ailəsi 1993-cü ildən Ağsu rayonunda məskunlaşıb:** "Atam Əli Məmmədov 19992-ci ildə Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olub. 18 yaşımdan ictimai-siyasi proseslərə qoşulmuşam. AXCP Ağsu rayon şöbəsinin gənclər təşkilatının sədri, KXCP Ağsu rayon şöbəsi Məclisinin sədri, KXCP Ali Məclisinin üzvü olmuşam. Hazırda KXCP Ali Məclisinin üzvü və QAT Ağsu rayon şöbəsinin sədriyəm. Siyasi fəaliyyətim dövründə saysız-hesabsız təzyiqlərlə üzləşmişəm. 2003-cü ildə saxta ittihamla həbs olunmuşam, həbs olunduğum dövrdə polislər tərəfindən qolum sındırılıb və işgəncələrə məruz qalmışam, altı ay Bayıl həbsxanası dövründən sonra 4 il şərti azadlıqdan məhrum edilmişəm. Keçən dövrlərdə dəfələrlə həbs edilərək polis bölmələrində zorakılıqlarla üzləşmişəm. Hakimiyyət mənə görə ailəmizə də təzyiqlərdən əl çəkməyib. Şəhid ailələri və məcburi köçkünlər mənzillə təmin olunduqları halda, ailəmiz şəhid ailəsi olaraq mənzillə təmin edilməyib. Nə Kəlbəcər Rayon İcra Hakimiyyəti, nə də Ağsu Rayon İcra Hakimiyyətinin başçıları bizim ailəmizin onların ərazisində məskunlaşmasını istəmir. Bu il keçirilən parlament seçkilərində Ağsu rayonundan namizəd olan Zəka Şikarlının seçki qərargahının sədri və vəkili olaraq seçkilərdə fəal iştirak etmişəm. Seçkilərdə seçki qərargahımızın üzvləri ilə bərabər apardığımız mübarizədə Zəka Şikarlı Ağsu sakinlərinin dəstəyini qazansa da, seçkilər kütləvi şəkildə saxtalaşdırılıb. Bundan sonra biz yenə də mübarizə apararaq şikayətimizi aidiyyəti qurumlara ünvanlamışıq. Mənim bu seçkidə olan fəaliyyətim yerli icra hakimiyyətini və saxta deputat Tahir Kərimlini narahat etməyə bilməzdi. Seçkidən dərhal sonra məskunlaşdığımız "Qərənfil" uşaq bağçasını sökürlər. Orada məskunlaşan, bizdən başqa iki məcburi köçkün ailəsini heç bir yerdə məskunlaşdırmadan bağçanı təmir adı ilə sökməyə başlayıblar. Həmin bağça binası bu il 3-cü dəfədir ki, təmir adına sökülür. Hakimiyyətdən mənə görə ailəmizə təzyiqlərə son qoymağı bir daha tələb edirəm".

Qeyd edək ki, Z.Şikarlı seçkilərlə bağlı yaradılan "AG blok"un təsisçilərindəndir. "AG blok" sözügedən həbslə bağlı bəyanat yayaraq B.Məmmədovun həbsini pisləyib və sifarişli həbs qərarının ləğvini tələb edib. Həmçinin "AG blok"un namizədinə qarşı təzyiqlərin dayandırılması tələb edilir.

**KXCP isə Ali Məclis üzvünün qardaşının həbsini partiyada müzakirə edəcək. Qurumun sədr müavini Xəzər Teyyublu musavat.com-a bildirib ki, siyasi fəaliyyətlə məşğul olan şəxsin ailəsinə yönəlik addımlar pislənilir:** "Bu addımı pisləyirik. KXCP ölkədə siyasətlə məşğul olan şəxslərin ailəsinə, doğmalarına qarşı təzyiqlərin normal olmadığı qənaətindədir. Bu, siyasi partiya üzvünün fəaliyyətinə qarşı birbaşa repressiv addımdır. KXCP bu məsələni qısa zamanda müzakirə edəcək. Həbsin motivlərini də öyrənəcəyik".

❑ **Röya RƏFİYEVA**

# Elza Seyidcahan həbsə girməyə razılaşdı

## "Həbsxanadan o adamlar qorxsun ki..."


Elza Seyidcahan

**Bəstəkar-müğənni, 54 saylı Şabran-Siyəzən seçki dairəsindən deputatlığa namizəd olmuş Elza Seyidcahanın seçki saxtakarlığı ilə bağlı verdiyi açıqlamalar ölkə mətbuatının gündəminə çevrilib. Əməkdar artist son açıqlamasında deyib ki, rəqibi Tahir Süleymanov və onun səlahiyyətli nümayəndəsi Etibar Heydərov dövlətin içində bir dövlət, diktatura yaradıblar: "İndi də onlar məni "cəbhəçi" adlandırırlar. Bundan öncə mən bircə musiqi terminləri tanıyırdım, "bas açarı", "diyez", "bemol", "bekar", "skripka açarı" və s. Amma seçkilərə qatılandan artıq bir çox terminlərlə tanış olmuşam, məsələn, seçkidə "karusel", inzibatçılar...**

Məni əsəbələşdirməsinlər, elə etməsinlər ki, bütün dünyaya car çəkib mənim dövlətimdə haqsızlıq olduğunu bildirim. Dövlətimin qanunlarına, prezidentinə, YAP-a qurban verib bu cür addım atmıram. Amma olmaz belə... Gəlin bir-iki nəfərin pulu ilə haqqı nahaqa satmayaq, qanunlarımızı tapdalamayaq, incəsənətimizi məhv etməyək. Mən bir mahnımı eşidən əsgərlər ermənilərdən Qarabağımızı ala bilərlər. Lakin indi mənim ruhumu məhv edirlər və təkcə mənim deyil, eləcə də bütün Azərbaycanın..."

**Müğəni YAP-ın icra katibi Siyavuş Novruzovun onun partiyadan çıxarılacağı barədə verdiyi açıqlamaya da şərh verib:** "Siyavuş müəllimin dediyinə hörmətlə yanaşıram, bu onun şəxsi fikridir. O da eyni zamanda mənim fikrimə hörmətlə yanaşmalıdır. Hər kəsin öz hüququ var, mən də qanunları gözləmişəm. Ey mənim vətənpərvər, qanunları bilən insanlarım, Siyavuş müəllim, sizcə, düz deyir?!

Bu da Etibar Heydərovun mənə qarşı apardığı təxribatlardan biridir. Əgər məni həbs etmək istəyərlərsə burdan (Siyəzən rayonunu nəzərdə tutur) elə piyada ayaqla gəlib həbsə girərəm. Çünki mən həbsxanadan da qorxmuram. Həbsxanadan o adamlar qorxsun ki, haqsız yerə həbsə saldıqları adamlar orda onların başına oyun açacaqlar. Əgər həbsə getsəm, orda da əmin-amanlıq, sülh yaradacam. Buna görə məni hədələməsinlər".

**Elza Seyidcahan əməkdar məşqçi, yeniyetmə sərbəst güləş yığmasının çalışdırıcısı olan, Azərbaycan güləşinə olimpiya və dünya çempionu yetişdirən dayısı Vahid Məmmədovun bugünlərdə işdən çıxarılmasına da aydınlıq gətirib:** "Dayım uzun illərdir ki, Azərbayacanda böyük çempionlar yetişdirib, Heydər Əliyev öz əlləri ilə dayımın yaxasına Şöhrət ordenini taxıb. Mən həmin gün çox əsəbləşmişdim. O zaman dayım mənə zəng edib dedi ki, işdən çıxarılıb. Elə bildim ki, bu mənə görə olub, çox qorxdum. Lakin dayım sonradan bildirdi ki, işdən çıxarılması mənimlə bağlı deyil, ixtisara düşüb.

Fəxr edirəm ki, dayım da, mən də Siyəzəndə doğulmuşuq. Bizim ailəmiz hər zaman vətənpərvər olub, millətimiz xalqımız üçün çalışmışıq".

**Müğənni seçki zamanı qarşılaşdığı haqsızlıqlarla bağlı MSK-ya müraciət etdiyini vurğulayıb:** "Seçki zamanı mənim müşahidəçilərimin telefonları əllərindən alınıb, onlara təzyiqlər edilib, qorxudulublar. Səsləri toplayan zaman məni məntəqədən qovdular. Kürəkənim Elxan Alisatov həm də 51 saylı məntəqədə müşahidəçim idi. Etibar Heydərov onu otağına çağırıb 500 min rüşvət təklif edib. İndi də mənə təzyiqlər edilir ki, rayonu tez bir zamanda tərk edim.

Üzləşdiyim haqsızlıqlarla bağlı MSK-ya müraciət etmişəm.Mən orda sanki Allahı gördüm, qanuna, incəsənətə dəyər verən insanları gördüm. Ordan çıxanda öz-özümə dedim ki, "Elza, irəli!"

❑ **Xalidə GƏRAY**

# Məşhur akademikin nəvəsinin ölümünün sirri

## İlkin məlumatlardan belə çıxır ki, Əli Şahtaxtinski özünü dizindən aşağı olan bir hündürlükdən asıb...

**Bakıda məşhur fizik, akademik Məhəmməd Əmin Şahtaxtinskinin nəvəsi Əli Şahtaxtinskinin müəmmalı ölümü haqda məlumat vermişdik. Oktyabrın 10-da itkin düşən Ə.Şahtaxtinskinin asılmış vəziyyətdə meyitini noyabrın 3-də Səbayel rayonu, Xəqani küçəsi ev 39, mənzil 12 ünvanında aşkarlayıblar. Məlum olub ki, Ə.Şaxtaxtinskinin həmin küçədə mənzili olsa da, o, həmin mənzili də kirayələyib. Onun kirayələdiyi mənzil haqda özündən savayı kimsə məlumatlı olmayıb.**


Əli Şahtaxtinski

Onun mənzildə asılmış meyitini Fövqəladə Hallar Nazirliyinin əməkdaşları aşkar ediblər. Hadisə yerinə cəlb edilmiş xilasedicilər mənzilin giriş qapısını açıb və adıçəkilən şəxsin cəsədini aşkar ediblər. İlkin məlumatlarda Ə.Şahtaxtinskinin meyitinin istilik batareyasından asılmış vəziyyətdə aşkar olunduğu qeyd olunur. Adətən istilik batareyalarının pəncərələrin aşağı hissəsində yerləşdirildiyini nəzərə alsaq, belə çıxır ki, Ə.Şahtaxtinski özünü dizindən aşağı olan bir hündürlükdən asıb? Bu sual açıqdır.

Məhkəmə-tibb ekspertlərinin ilkin rəyinə görə, Ə.Şahtaxtinskinin bədəni üzərində xəsarət izləri aşkar olunmayıb.

Şahtaxtinski ailəsinə yaxın mənbədən vesti.az-a deyiblər ki, Ə.Şahtaxtinski oktyabrın 10-da yaşadığı evdən çıxarkən anasına tezliklə geri dönəcəyini deyib. Lakin sonrakı 13 gün ərzində geri dönməyib. Yaxınları, tanışlarının onu axtarması da bir nəticə verməyib. Oktyabrın 23-də Səbayel polisi axtarışlara qoşulub.

**Ailəyə yaxın mənbə deyib ki, 5 xarici dili mükəmməl bilən Ə.Şahtaxtinski Bakıda anası ilə birgə yaşayıb:**

"Onun bacısı illərdir ki, Amerikada yaşayır. Əli isə anası ilə Bakıda yaşayırdı. Əlinin intihar etməsinə inanmıram. O, biznesIə məşğul olurdu və pulu da az deyildi. Ana və bacısından başqa qohumları ilə əlaqə saxlamırdı, ailəli deyildi. İldə bir neçə dəfə Fransaya, Almaniyaya, Rusiyaya səfərlər edirdi".

**Mənbə "Əlinin intihar etməsinə inanmamağınızın səbəbi nədir" sualına belə cavab verib:** "Birincisi, o, anasını heç vaxt tək qoymazdı, ikincisi, onun yaxşı pulu vardı. Adam özünü niyə asmalı idi? O "Bakı" univermağının yaxınlığındakı mənzildə anası ilə yaşayırdı. Xəqani küçəsində mənzil kirayələdiyi haqda kimsəyə məlumat verməmişdi. Bu baxımdan onun hansısa mənzildə olduğu kimsənin ağlına belə gəlmirdi. Əli itkin düşəndən sonra hüquq-mühafizə orqanları onun ölkədən çıxmadığını müəyyən etmişdilər. Xəstəxana və meyitxanalarda da axtarışlar nəticə verməmişdi".

Ə.Şahtaxtinskinin konkret olaraq hansı biznes növü ilə məşğul olması haqda dürüst məlumat yoxdur. Bilinən odur ki, 2 il əvvələ qədər o, Moskvada "M-Paris" adlı dil məktəbinin sahiblərindən biri olub. Məktəbdə fransız, ingilis, ispan, italyan və çin dili mükəmməl səviyyədə öyrədilib.

Ə.Şahtaxtinskinin həmin məktəbin sahiblərindən biri kimi qaldığı haqda da məlumat yoxdur. Bilinən odur ki, 44 yaşlı Ə.Şahtaxtinskinin hər hansı bir ciddi problemi olmayıb. Belə bir halda onun həyatla bu şəkildə vidalaşmasına əsaslar da qalmır. Bəs məşhur akademikin oğlu özünü niyə asıb?

Bu suala hüquq-mühafizə orqanları cavab verməlidirlər.

Faktla bağlı Səbayel Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci - özünü öldürmə həddinə çatdırma maddəsi ilə cinayət işi başlanıb.

❑ **E.HÜSEYNOV**



## İqtidarın “fil”ini qurban verməsinin daha bir sirri

# Antikorrupsiya həbsləri genişlənir - Ziya Məmmədov necə “xilas olub”

Prezidentdən məmurlara yeni xəbərdarlıq: “Heç kim toxunulmaz deyil”; xəbərlər var ki, iqtidar həbslərin miqyasını tam açıqlamır, bir sıra məhkəmələrdə “növbətçi məhkəmə” sistemi tətbiq edilib, hər gün şəhərin müxtəlif məhkəmələrinə “konvoy”la həbs olunmuş adamlar gətirilir və buradan da birbaşa Bakı İstintaq Təcridxanasına aparılır; nəqliyyat nazirinin niyə İsveçrəyə getməsi barədə sensasion iddialar...

**Prezident İlham Əliyevin sədrliyi ilə oktyabrın 12-də keçirilmiş son müşavirədə məmurlara ünvanlanmış sərt mesajları hakimiyyətdə ciddi siyasi proseslərin startı kimi dəyərləndirilirdi. Toplantıda dövlət başçısının “əgər rüşvətxorluq, korrupsiya, yoxlamalar, lisenziyalar, haqqoyma olmasaydı, görün, büdcəmiz nə qədər arta bilərdi?! Buna nə qədər dözmək olar?! Artıq qurtardı, yəni hövsələ tükənib. Hər kəs nəticə çıxarsın. Nəticə çıxarmasa, cəzalandırılacaq” bəyanatından 5 gün sonra heç kimin gözləmədiyi halda Eldar Mahmudov milli təhlükəsizlik naziri postundan çıxarıldı, böyük bir rüşvət çetesinə çevrilmiş MTN strukturunda “təmizləmələr” və həbslər başladı.**

Hakimiyyətin silkələnməyə ən güclü fiqurlardan birindən və həm də seçki ərəfəsi başlaması dövlət başçısının “kim nəticə çıxarmasa, cəzalandırılacaq” qərarının arxasında olduğunu sübut etdi.

Qeyd edək ki, oktyabrın 14-də baş prokuror Zakir Qaralovun sədrliyi ilə müşavirənin Baş Prokurorluğun binasında deyil, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində keçirilməsi diqqət çəkmişdi. Prezidentin müşavirəsindən dərhal sonra Baş Prokurorluğun hərəkətə keçməsi ölkədə yeni antikorrupsiya tədbirlərinin başlandığının anonsu sayıla bilərdi. Hələ bir neçə gün əvvəl “Yeni Müsavat” öz mənbələrinə istinadən Antikorrupsiya İdarəsində “işçi qrup” adı altında əslində məhz antikorrupsiya əməliyyatları üçün görəvləndirilən xüsusi qrup yaradılmasını xəbər vermişdi.(http://musavat.com/news/gundem/yeni-antikorrupsiya-hebsleri-bashlayir-boyuk-bashlar-derdde_298885.html). Prokurorluğa yaxın mənbəmiz demişdi ki, bu qrupa geniş səlahiyyətlər verilib və həbslərlə bağlı qərarlar birbaşa prezidentin adından icra ediləcək. Bu o demək idi ki, işçi qrupu üçün heç bir maneə və toxunulmaz nazirlik, məmur olmayacaq. Bu həm də o anlama gəlirdi ki, 2011-ci ildən başlamış və nisbətən aşağı məmur korpusuna toxunan antikorrupsiya həbsləri bu dəfə daha yüksək dairəni və miqyası əhatə edəcək. Göründüyü kimi, müşavirədən keçən müddətdə təkcə MTN-də deyil, bir neçə idarə və müəssisədə, nazirliklərdə, o cümlədən vaxtilə “toxunlmaz” olan Vergilər Nazirliyində idarə rəisləri həbsə alınıb. Azərbaycanda son on illikdə bu qədər geniş miqyaslı, həm də iri məmurların, generalların “içəri salınması” ilə nəticələnən əməliyyat keçirilməyib. Xəbərlər var ki, iqtidar həbslərin miqyasını tam açıqlamır. Bir mənbəmiz deyib ki, bir sıra məhkəmələrdə “növbətçi məhkəmə” sistemi tətbiq edilib. Hər gün şəhərin müxtəlif rayon məhkəmələrinə “konvoy”la həbs olunmuş adamlar gətirilir və buradan da birbaşa Bakı İstintaq Təcridxanasına aparılır.

***

Əldə etdiyimiz məlumata görə, hazırda Hesablama Palatası bir neçə nazirlikdə maliyyə yeyintiləri ilə bağlı xüsusi araşdırma aparır. Bu sırada Nəqliyyat, Vergilər, Kənd Təsərrüfatı, Mədəniyyət və Turizm nazirlikləri, AZAL QSC də var ki, artıq həmin strukturlarda həbslər başlaması xəbəri gəlməkdədir. Əvvəlki illərdə Hesablama Palatasının audit yoxlamalarında “tanışıq-dostuq”, “filankəsin qohumuyuq” kimi söhbətlər indi geçərli deyil. Əgər əvvəllər maliyyə yoxlamaları “aşağıları” əhatə edirdisə, indi istənilən nazirdən belə maliyyə hesabatı soruşulur. Hesablama Palatasının yoxlamalarından sonra Antikorrupsiya İdarəsindəki xüsusi qrup işə qoşulur və həbslər başlayır. Yəni elə bir yoxlama mexanizmi işə salınıb ki, hansısa bir nazirin ona qarşı durması faktiki sonu ola bilər.

Xəbərlər var ki, bir sıra nazirlərə, ümumiyyətlə, yoxlamalar barədə heç bir məlumat verilmir. Yalnız nazirlikdə hansısa yüksək vəzifəli şəxsin həbsi sanksiyası imzalandıqda nazirə bu barədə xəbər verilir. Yəni həbslər prosesində həm də maksimum məxfilik qorunur.

Eldar Mahmudovun “vurulması” ilə medianın gündəmindən çıxan nəqliyyat naziri Ziya Məmmədovla bağlı siyasi qərar da məhz bu yoxlamaların sonuna bağlıdır. Maliyyə yeyintiləri ilə bağlı ən hay-küylü həbslərin Nəqliyyat Nazirliyi strukturlarından olacağı barədə informasiyalar hələ Z.Məmmədov “müalicədə” olanda vardı. Bildirilirdi ki, yoxlamalara nazirliyin bütün idarələri cəlb olunub, Nəqliyyat Nazirliyinin bütün maliyyə hesabatları götürülüb. Prezidentin qərb bölgəsinə səfəri zamanı bir sıra yeni yolların açılışında nəqliyyat nazirinin yenə görünməməsi onunla bağlı hər hansı “əfv qərarı” olmadığını da göstərdi...

Yeri gəlmişkən, Z.Məmmədovun məzuniyyət adı ilə İsveçrəyə getməsi bəzi sensasion iddialara səbəb olub. Məlumdur ki, nəqliyyat nazirinin və oğlunun Beynəlxalq Banka külli miqdarda borcu var. O cümlədən Nəqliyyat Nazirliyinin maliyyə vəziyyətində ciddi problemlər yaranıb, hökumət yollarda “yoxa çıxmış” milyonların hesabını soruşur. Azərbaycan məmurlarının əksəriyyətinin pulları isə İsveçrə banklarındadır. İddialar var ki, nazir xaricdə yatırdığı vəsaitləri çıxarıb ölkəyə qaytarmaq üçün İsveçrəyə gedibmiş. Maraqlıdır ki, məhz “məzuniyyətdən” sonra nazir iş başına qayıtdı və oğlu Anar Məmmədov da son aylar ilk dəfə mediada göründü.

***

Yeni antikorrupsiya tədbirlərinin hakimiyyətin etibarından düşmüş AZAL rəhbəri Cahangir Əsgərovu da bitirəcəyi deyilir. Onun rəhbərlik etdiyi konserndə korrupsiya ilə bağlı şok faktlar yayılır. AZAL-da genişmiqyaslı yoxlamalara gedir və bu, C.Əsgərovun son illərdəki bütün istiqamətlər üzrə fəaliyyətini əhatə edir.

***

**Noyabrın 4-də qərb bölgəsinə səfəri zamanı dövlət başçısı bu mövqeyini bir daha bəyan edib. İ.Əliyev MTN-də sahibkarlara qarşı baş verən qanunsuzluqları xatırladıb:** “Bu, dəhşətli faktlardır. Dövlət nümayəndələri tərəfindən sahibkarlara qarşı nə qədər böyük ədalətsizliklər edilib. Onlara qarşı əsassız tələblər irəli sürülüb. Onların əmlakı bəzi hallarda əllərindən alınıb. Bəzi hallarda reketlik edilib. Ona heç rüşvət də demək olmaz. Rüşvət o vaxt verilir ki, kimsə nə isə etmək istəyir, işi asanlıqla getsin deyə rüşvət verir. Amma bəzi hallarda, sadəcə olaraq, sahibkarların əlindən əmlak, vəsait alınır, onlara hədə-qorxu gəlirdilər, işgəncələr verirdilər. Ona görə ədalətli məhkəmə sistemi bu faktlara adekvat qiymət verməlidir”.

**Prezident deyib ki, korrupsiyaya qarşı mübarizə aparılması əhəmiyyətlidir. Bu sahədə beynəlxalq təcrübənin tətbiqi vacibdir:** “Cəmiyyətdə korrupsiya və rüşvətxorluq hallarına qarşı heç kim toxunulmaz deyil. Bu kimi hallara qarşı cəza tədbirləri davam etdiriləcək. Heç kim toxunulmaz deyil”.

***

Eldar Mahmudovun vurulması ilə başlanmış yeni antikorrupsiya həbslərindən də aydın görünür ki, prezident oliqarx-məmurların cəzalandırılmasında qərarlıdır. Çünki oliqarx-məmurlar Eldar Mahmudov kimi o həddə şişiblər ki, özlərini “əvəzedilməz” sayır, xəbərdarlıqlara baxmayaraq böhran dövründə belə daha çox qazanmaq hərisliyindən əl çəkmirlər. Prezident hakimiyyətdə az qala özünü “fil” hesab edən Eldar Mahmudovu cəzalandırmaqla digərlərinə son xəbərdarlığını etmiş oldu. Təsadüfi deyil ki, E.Mahmudovdan sonra media “növbədə kimdir” sualı ətrafında gəlişmə edərkən “komandadan hamı ola bilər” mövqeyində həmrəydir.

❑ “Yeni Müsavat”

# Abbas Abbasovun “kassiri” işdən qovuldu- həbsi gündəmdə...



Fuad Abdullayev

İşdən çıxarılan Beynəlxalq Bankın Moskva filialının sədri Fuad Abdullayevin həbs ediləcəyi deyilir; onu “Milyarderlər ittifaqı” ilə nə bağlayır?; filialın kreditlər şöbəsinin direktoru sabiq vitse-primyerin qardaşı qızının əridir

**Azərbaycan Beynəlxalq Bankının Rusiyada törəmə müəssisəsi olan “ABB-Moskva”nın İdarə Heyətinin sədri Fuad Abdullayev işdən çıxarılıb. Onun yerinə Emin Əfəndiyev təyin edilib.**

Qeyd edək ki, Beynəlxalq Bankın Moskva filialı 2001-ci ilin yanvarında yaradılıb. Onun nizamnamə kapitalı 2,11 milyard rubl təşkil edir. Bankın yeganə təsisçisi və sahibi Azərbaycan Beynəlxalq Bankıdır.

Bir neçə ay əvvəl Rusiya Mərkəzi Bankı Azərbaycan Beynəlxalq Bankının Moskva filialını çirkli pulların yuyulması haqda qanunu pozmaqda ittiham etmişdi. Məlumatda bildirilirdi ki, Azərbaycan Beynəlxalq Bankının Moskva filialı “Cinayətkar yollarla əldə edilmiş gəlirlərin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqda" Qanunun 15.27-ci maddəsinin 1-ci hissəsini pozmaqda günahlandırılır. Bu qanun pozuntusuna görə bank inzibati məsuliyyətə cəlb edilib və ona rəsmi xəbərdarlıq olunub”. Rusiya Mərkəzi Bankının müvafiq qərarı ötən ilin noyabr ayının 7-də qüvvəyə minib.

Rusiyadan Azərbaycana həyata keçirilən pul köçürmələrinin yarısından çoxu Beynəlxalq Bank vasitəsilə köçürülürdü. Bu köçürmələr “IBA Express” sistemi vasitəsilə aparılırdı. Bu sistem çərçivəsində köçürmələrin ümumi illik həcmi 120 milyon dollardan çox idi.

Beynəlxalq Bankın Moskva filialının rəhbəri haqda ilginc məlumatlar hələ işdən çıxarılmasından əvvəl də vardı. İddia olunurdu ki, yaradıldığı vaxtdan Rusiyada yaşayan azərbaycanlılara bankın Moskva filialından ya kredit verilməyib, ya da müraciət edənlərə kreditin əvəzində 10-15 faiz həcmində pul verilib. Beynəlxalq Bankdakı dayağı Cahangir Hacıyevin hesabına F.Abdullayev Moskvada özünə var-dövlət qazanıb və oliqarx kimi yaşayıb.

O Beynəlxalq Bankın pulu ilə Moskvanın Lenin prospektindəki “Forto-Pyano” yaşayış kompleksi üçün azərbaycanlılardan külli miqdarda pul yığsa da, onları aldadıblar. Bu işdə isə filialın kreditlər şöbəsinin direktoru Fərhad Rüstəmovun adı hallanır. F.Rüstəmov kredit qalmaqalına görə Bakıda həbs olunan, yalnız bir neçə gün əvvəl isə hələ ki bilinməyən səbəblərdən azad edilən Nadir Abbasovun qızının əridir. Nadir Abbasov baş nazirin keçmiş 1-ci müavini Abbas Abbasovun doğma qardaşıdır. Aydındır ki, məhz onun vasitəsilə N.Abbasov Beynəlxalq Bankdan 10 milyon kredit götürüb. Ümumiyyətlə, Moskva filialının məhz Abbas Abbasovla yaxınlığı, hətta ona işlədiyi barədə iddialar çoxdur. F. Abdullayevin “Milyarderlər ittifaqı” adlanan qurumun “kassası” olduğu barədə də xəbərlər vardı.

Məlumatlara görə, Fuad Abdullayevin işdən çıxarılması birbaşa kredit qalmaqalı ilə əlaqəlidir. Hətta onun həbs ediləcəyi barədə də iddialar var. “Azadlıq” qəzeti yazıb ki, yaxın günlərdə “kredit qalmaqalı” ilə bağlı yeni həbslər dalğası başlayacaq. İddialara görə, əsasən Beynəlxalq Bankdan kredit götürən Cahangir Hacıyevə yaxın şirkətlərin məsul işçiləri cinayət məsuliyyətinə cəlb olunacaq. Qəzet bu şirkətlərin sayının 40-a yaxın olduğunu yazır. Qeyd olunur ki, kredit qalmaqalının ilk günlərində onlardan çoxunun rəhbəri DIN-in Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə aparılmışdı. Bəziləri kredit borcunu ödədiyinə görə sərbəst buraxılmışdı. Bəziləri isə hələ də həbsdədir. Möhlət verilən şirkətlər də var. Bildirilir ki, artıq onlara verilən müddət başa çatıb. Lakin hələ də kreditlər ödənilməyib. Ona görə də onların həbs olunması barədə qərar verilib.

❑ “Yeni Müsavat”

YENİ MÜSAVAT
N 247 (6275) 6 noyabr 2015



# Qohumcanlı olmadınsa...

Samir SARI

Uzun illər öncəydi, vaxtaşırı iqtidar adamlarının yerlibazlıq və qohumbazlığından yazılar yazırdım (o vaxtlar bu mövzu indikindən bir neçə dəfə aktual idi). Təvazökralıqdan kəndimizdəki Qocaqazan təpəsi qədər uzaq olsa da, deyim ki, bu yazılar xalqımız tərəfindən yaxşı qarşılanırdı.

"Xalqımız" deyərkən, əlbəttə ki, yerlibazlıq, qohumbazlıq edənlərdən söhbət getmir. Onlar mənə səmimi qəlbdən nifrət edirdilər, hətta arada qəzetimizin təsisçisinin üstünə şikayətə-filana da gəlirdilər ki, ona de, yerlibazlıqdan yazı yazmasın, bu, bizim heysiyyətimizə toxunur.

Xüləs, həmin ərəfələrdi, bir uzaq qohumumuzun hüzr məclisinin bir küncündə yaşıma uyğun qohumlarla oturub mollanın dərin məzmunlu çıxışına qulaq asıram və öz aramızda pəsdən söhbət edirik. Söz yazdığım yazılardan düşdü. Birdən qohumlardan həmyaşıdım olan biri son yazımı nəzərdə tutaraq soruşdu: "Yazırsan ki, yerlibazlıq, qohumbazlıq pis şeydir. Bax, sabah sənin əlində yaxşı bir vəzifə olsa, mənə babat bir vəzifə verməyəcəksən?"

Sual çox qəti qoyulmuşdu, konkret cavab tələb edirdi. Özü də elə bir vaxt idi ki, birləşmiş müxalifət qüvvələrinin hakimiyyətə gəlmək şansı, müşahidəçilərə görə, 50 faizin üstündə dəyərləndirilirdi.

Sital suala cavab verərkən ağzımı sürüdüm. Əslində mən ona dərhal, sırf başdan eləmək üçün "niyə vermirəm, vəzifə sənə qurbandır" desəm, o saat deyəcəkdi ki, bəs onda niyə belə yazılar yazırsan, görürsən, vəzifən olsa, sən də qohumbazlıq edərsən. Yox, əgər 24 saat ideya-məfkurə dərdi çəkən inqilabçılar kimi, "xeyr, sənə vəzifə düşmür, çünki layiq deyilsən" desəm, yenə olmazdı, bu gün-sabah seçkidir, bunlar da Allah qoymasa, elektoratdır, acıq edərlər.

Ona görə də diplomatik cavab verməyi üstün tutdum, dedim ki, vəzifələri ixtisaslı kadrlara kimin qohumu, haralı olmasına görə vermək düzgün olmaz, hər kəs qabiliyyətinə və bacarığına görə hansısa posta təyin edilməlidir, sənin də bacarığın hansı sahədədirsə, potensialından o sahədə istifadə oluna bilər.

Qohum qane olmadı, sanki adıma yazdığı ərizənin üstünə dərkənar qoymadan üstünə qaytarmışdım. İnciyəntəhər oldu, hətta bir balaca da hiddətləndi, dedi, bax, ona görə də siz heç vaxt hakimiyyətə gələ bilməyəcəksiz.

Mən də yüngülcə qəzəbləndim, dedim, heç bizə lazım da deyil, hakimiyyətə gəlib sənin kimilərə vəzifə paylayacağısa, elə müxalifətdə qalsaq yaxşıdır.

Amma maşallah olmasın heç, adamlar var ki, əllərinə vəzifə keçəndən sonra nəslində bir başıpapaqlı qoymur, hamısına vəzifə verir. İş də yox ha, vəzifə, gəlirli post. Bir ilin içində villa tikdirməyə, cip almağa imkan verən yağlı vəzifə.

Budur, ARDNŞ prezidenti Rövnəq Abdullayevin vəzifəli qohumlarının siyahısını yenə paylaşıblar.

Bu arada şirkətin nəyə görə özünə son vaxtlar israrla ARDNŞ yox, SOKAR deməsinin sirrini açım. ARDNŞ abbreviaturasının açması, türkün sözü tühafdır, belə də açıla bilir: Abdullayev Rövnəqin Dədəsinin Neft Şirkəti.

Təvazökarlıqdan Diyarbəkir mahalı qədər uzaq olsa da, deyim ki, ARDNŞ abbreviatrasının bu variantını ilk dəfə 7 il qabaq qəzetdə mən yazmışam. Mənə də adının çəkilməsini istəməyən həkim dostum Allahverdiyev İmamverdi demişdi (burasını zarafat edirəm, həkim dostumun adını məndən yalnız içəridə ala bilərlər).

Əslində, son zamanlar populyarlaşan bu ifadə həqiqətə çox yaxındır, bunu Rövnəq müəllimin ARDNŞ-də toplaşan qohumlarının siyahısına baxanda aydın görmək olar.

Təsəvvür edin ki, SOCAR-da İnformasiya Texnologiyaları Departamentinin rəisi də, müavini də, satış direktoru da, Neft Emalı zavodunda qaz və oksigen sektorlarının müdirləri də, "Suraxanı OIL" və "Balaxanineft"in rəhbərləri də, "EKOL"-un və Neft-Yağ Emalı zavodunun rəisləri də, SOCAR-da demontaj sektorunun, Neft Kəmərləri İdarəsinin rəisləri də, rəisin müavini də, "SOCAR PETROL"-un prezidenti də, şirkətin təchizat departamentinin rəisi də Rövnəq müəllimin qan qohumlarıdır.

Hələ bunlar rəislərdir, üç o qədər başqa qohumlar da gözəgörünməyən işlərdə çalışırlar. Allah iş avandlığı versin, hamısı dövlətçilik üçün, neft strategiyamızın uğur qazanması üçün işləyir.

Mən də o vaxt nahaq yerə qohumumu incitdim, getdi. Hələ də xeyir-şər məclislərində çəp-çəp baxır, elə bil, MTN-də general imiş, sərəncama götürmüşəm, işsiz qoymuşam.

# Bahalaşmanın yeni dalğası başladı

**Market və bazarlarda ərzaq və kənd təsərrüfatı məhsullarının qiyməti qalxmaqda davam edir. Az qala bir neçə gün əvvəl alınan ərzağı bu gün artıq həmin qiymətə almaq mümkün olmur. Qiymətləri daha yaxından öyrənmək üçün dükan-bazarlara üz tutduq.**

## Azər Mehdiyev: "Yoxlamaların aradan qaldırılması müqabilində ölkəyə məhsul gətirilməsində inhisarçılıq qalır"

Market və bazarlarda alıcılıq qabiliyyəti olduqca aşağı idi. Alıcılar vəziyyətdən narazı idilər. Baş çəkdiyimiz bütün marketlərdə satıcı və alıcı arasında qiymət üstündə aparılan mübahisələrin şahidi olduq. Alıcılar dünənki qiymətlə bu günkü qiymətin fərqli olduğunu deyir və bəzi alıcılar buna etiraz olaraq alacaqları ərzağı almadan mağazanı tərk edirdilər. Satıcılar isə sadəcə olaraq, "hər şeyin qiyməti bahalaşıb" deyərək özlərinə haqq qazandırırdılar.

Bazarda da vəziyyət fərqli deyildi. Qiymətlərə gəlincə isə keçən həftə ilə bu həftədəki qiymətlər arasında ən azı 30 qəpik, ən çoxu isə 3-4 manat fərq vardı. Belə ki, əvvəllər 11 manata satılan 5 kiloluq yuyucu toz indi 14 manata, 5 manata satılan kolbasa 7 manata, 30 qəpiyə satılan yarım litrlik qazlı içkilər isə indi 50 qəpiyə satılırdı. Həmçinin də çayların, şəkər tozunun, qəndin qiymətində 20-30 qəpik artım vardı. Qatığın, südün qiymətində də 10-30 qəpik arası artım müşahidə etdik. Kənd təsərrüfatı məhsullarına gəlincə isə pomidor 2 manat- 2 manat 50 qəpiyə, bibər 5 dənəsi 1 manata, dolmalıq balaca badımcanlar 4 manat, böyük badımcanlar isə 1-2 manat arasında satılırdı. Əvvəllər 6-7 dənəsi bir manata satılan göyərtilərin indi 4-5-i bir manata satılır. Meyvələrə gəlincə , mandarin 1 manat 50 qəpik- 2 manat arası, təzə yaşıl alma 2-3 manat, üzüm 2-3 manat arası, armud 4 manata, banan 2 manata, əvvəllər bir dənəsi 20 qəpiyə satılan limon isə 30-40 qəpiyə satılırdı.



Azər Mehdiyev

Qurudulmuş meyvələrdən qurudulmuş alma 3 manata, qurudulmuş ananas 5 manata idi. Təmizlənmiş qoz 16 manat, təmizlənmiş fındıq 11-13 manat, qabığı təmizlənmiş keşyu fındığı 9 manat, fıstıq 14-17 manat, təmizlənmiş badam 15-17 manat, qara kişmiş 8-10 manat, qabıqlı şabalıd 4-7 manat, qabıqlı badam 17 manata satılırdı.

**İqtisadçı ekspert Azər Mehdiyev bahalaşmaya inhisarçılıq amilinin səbəb olduğunu bildirdi:** "Əslində bu məsələ ciddi araşdırma tələb edir. Bu məhsulların hansı ölkələrdən gətirilməsi, gətirilərkən hansı problemlərlə üzləşməsi, gətirilmə qiymətləri ilə bazara çıxarılma qiymətləri arasındakı fərqlər araşdırmalıdır. Əslində belə bir araşdırılmanın İqtisadi İnkişaf Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən aparılması vacibdir. Çünki onların əlində bu məlumatlara çıxış imkanları genişdir. Təəssüf ki, bizdə belə araşdırmalar aparılmır. Son zamanlar vətəndaş cəmiyyətinin də bu cür araşdırmalar aparmağa imkanları məhduddur. Bu baxımdan bizim bahalaşma ilə bağlı söyləyəcəyimiz fikirlər yalnız ümumi tendensiyalara söykənir. Bəzən bu tendensiyalarla real proseslər arasında uyğunsuzluqda yarana bilir. Deyilmişdi ki, Azərbaycanda fevral ayındakı devalvasiyadan sonra çox sərt nəzarət tədbirləri nəticəsində qiymət artımının qarşısı alındı. Hökumət süni qiymət artımının qarşısını almaq adı altında faktiki olaraq sahibkarların ziyanına da olsa bu qiymətlərin müəyyən müddətdə saxlanmasına nail oldu. Sahibkarlar hətta qiymətləri qaldırmağa belə çəkinirdilər. Son zamanlar nəzarətin zəifləməsi, qiymət artımının adiləşməsi sahibkarlara imkan verir ki, məhsulların qiymətini artırsın. Çünki böyük inhisarçılıq mövcuddur. Yəni inzibati tədbirlərin, yoxlamaların aradan qaldırılması müqabilində ölkəyə məhsul gətirilməsində inhisarçılıq qalır. Bu inhisarçılığın qalması da təbii ki, istər-istəməz onlara istədikləri qiymətləri diqtə etməyə imkan verir. Yəni burada hələ də fevral ayında keçirilən devalvasiyanın nəticələri öz rolunu oynayır".

**İqtisadçı ekspert iqtisadi fəallığın azaldığını da bildirdi:** "Diqqət etsək bazarda alıcılıq qabiliyyətinin getdikcə aşağı düşdüyünü görərik. İqtisadi fəallıq da azalır. Əslində bu amillər qiymətləri aşağı çəkən amillərdir. Əgər qiymətlərin qalxması baş verirsə, bu, bilavasitə kənardan gətirilən məhsulların üzərində olmalıdır. Kənardan gətirilən məhsullara əlavə xərclərin qoyulması və yaxud da baha başa gəlməsi səbəbindən baş verən qiymət artımlarıdır. İnhisarçılar sırf öz əllərində olan imkanlardan faydalanaraq qiymətlərin qaldırılması istiqamətində addımlar atırlar. Xüsusilə indiki yoxlamaların aradan qaldırılması fonunda onlar bundan cəzasız qalacaqlarına əmindirlər. Bu proses də özünü göstərməkdədir".

❑ Günel MANAFLI

# Bank sektorunda ixtisarlar aktuallaşır

## Ekspertlər bildirirlər ki, devalvasiya banklara növbəti öldürücü zərbə vura bilər

**Ölkənin bank sektoru ağır durumdadır. Əksər ekspertlər bildirirlər ki, bu ilin əvvəlində bank sektorunu haqlayan böhran özünün yeni fazasına qədəm qoyub. Ekspert Samir Əliyevin sözlərinə görə, əmanət və kredit qoyuluşunun zəifləməsi, problemli kreditlərin artması fonunda kredit təşkilatlarının gəlirləri ilə zərərləri arasında fərqin azalması bankları sərt addımlar atmağa məcbur edib:**




"Xərclərin optimallaşdırılması adlanan siyasəti çərçivəsində filialların bağlanması prosesinə başlanıb. Belə davam edərsə, bank sektorunda ixtisarlar geniş vüsət alacaq. Hazırda sektorun dayanıqlığı sual altındadır. Mərkəzi Bankın yanvardan sonra bankların maliyyə dayanıqlığına və məcmu kapitalına dair statistik göstəriciləri, habelə gəlir və xərclərinin mövcud durumu barədə məlumatları dərc etməməsi vəziyyətin gərgin olduğunu deməyə əsas verir".

**Ekspertin sözlərinə görə, dərc olunmuş 9 aylıq göstəricilər bank sektorunda pisləşmə tendensiyasını qabarıq göstərir:** "Onların bəzilərinə diqqət yetirək. Bankların xarici öhdəlikləri 2014-cü ilin noyabrından sonra ən aşağı həddə, 6,3 milyard manata düşüb. Kredit qoyuluşu, xüsusilə milli valyutada verilən kreditlərin həcmi kəskin azalıb. Manat kreditlərinin həcmi 2013-cü ilin sentyabrı səviyyəsinə düşüb. Problemli kreditlər müstəqillik tarixində ən yüksək həddə, 1,4 milyard manata çatıb. Belə kreditlərin payı isə 7,1 faizə çatmaqla, son 11 ilin rekordunu vurub. Beynəlxalq Bankdakı restrukturizasiya olunmuş kreditləri də əlavə etsək, vəziyyətin daha da gərginləşdiyini deyə bilərik".

**S.Əliyevin sözlərinə görə, əmanət qoyuluşu devalvasiyadan əvvəlki səviyyəyə qədər azalıb:** "Dollarlaşmanın artması nəticəsində manat əmanəti 2015-ci ildə 2.5 dəfə azalmaqla yanaşı, onun payı 24 faizə düşüb. 2015-ci ilin təkcə 3-cü rübündə özəl banklara məxsus ən azı 6 filial bağlanıb. Ləğvetmə prosesində olan bankların sayı 5-dən 7-yə qalxıb. Kredit kartlarının sayı 2014-cü ilin may ayından bəri ən aşağı həddə, 1,13 milyona düşüb. Plastik kartlarla aparılan əməliyyatların həcmi 2015-ci ilin yanvarından sonra ən aşağı həddə, 962 milyon manata düşüb".

**Ekspert qeyd edib ki, oxşar problemlər bank olmayan kredit təşkilatlarında da müşahidə edilir:** "Mərkəzi Bankın komisyon haqlarının və faiz dərəcələrinin yuxarı həddinə tətbiq etdiyi limit daha çox həmin kredit təşkilatlarına zərbə vurub. Pul bazasının məhdudlaşdırılması, büdcə xərcləmələrinin azaldılması, iş yerlərinin bağlanması fonunda əhalinin gəlirlərinin azalması bank dövriyyəsini və kreditləşməni kəskin azaldıb. Üstəgəl, problemli kreditlərin artması bankların gəlirlərini əhəmiyyətli dərəcədə azaldıb, zərərini isə artırıb. Banklar hələ ki filialların birləşdirilməsi, işçilərin sayının ixtisarı hesabına xərcləri azaltmağa müvəffəq olur. Ancaq ixtisarların başa çatdığını söyləmək olmaz. Proses davam edəcək və daha geniş vüsət alacaq".

❑ RÖYA



## Avropa Məhkəməsindən Tofiq Yaqublu ilə bağlı önəmli qərar

**Avropa İnsan Haqları Məhkəməsi dünən vicdan məhbusu, Müsavat başqanının müvini Tofiq Yaqublu ilə bağlı qərar qəbul edib. Bu haqda Tofiq Yaqublunun vəkili Nemət Kərimli məlumat verib. Məhkəmə Beynəlxalq İnsan Haqları Konvensiyasının 5-ci maddəsinin - azadlıq hüququnun pozulmasını tanıyıb. Qərara əsasən Tofiq Yaqublu dərhal azad edilməli, ona təzminat olaraq 24 000 avro ödənilməlidir.**

Qeyd edək ki, Tofiq Yaqublu 2013-cü ildə qanunsuz olaraq həbs edilmişdi, onun barəsində 5 il müddətinə azadlıqdan məhrumetmə hökmü çıxarılmışdı.

# MSK 35 saylı Xətai III seçki dairəsi ilə bağlı dediyindən dönmədi

## İqbal Ağazadə: "Seçkinin qalibi faktiki olaraq, bizik"

**Noyabrın 1-də keçirilən seçkilərdə ən çox müzakirə olunan və gündəmdə qalan dairə 35 saylı Xətai 3-cü seçki dairəsi oldu. Hazırda dairədəki nəticələr ətrafında başlayan proses hər gün yeni məcraya qədəm qoyur. MSK tərəfindən Azərbaycan Sosial-Demokrat Partiyasının sədri Araz Əlizadənin qələbəsi elan olunsa da, digər iddiaçı Ümid Partiyasının sədri İqbal Ağazadə nəticələrin saxtalaşdırıldığını bildirmişdi.**

İ.Ağazadə üç məntəqədən protokolları əldə edə bilmədiyini, məhz bu məntəqələr üzrə A.Əlizadəyə 2800 səs yazıldığını və bunun hesabına onun qalib elan olunduğunu bəyan etmişdi.

Mərkəzi Seçki Komissiyasının saytında 35 saylı dairə üzrə nəticələr sıfırlanıb. Bu isə dairənin nəticələrinin yaxın günlərdə ləğv olunacağı anlamına gələ bilər.

**Məsələ ilə bağlı İ.Ağazadə ilə əlaqə saxladıq. Partiya sədri məlumatın doğru olduğunu bildirdi:** "MSK-nın saytında dairənin nəticəsi sıfırlanaraq silinib. Bu məlumat doğrudur. Dairənin nəticələrinin ləğv olunması barədə bir söz deyə bilmərəm. Əlimizdə olan faktlar hesab edirəm ki, kifayət qədər müsbət rol oynayacaq. Mübarizəmizi davam etdirəcəyik. Əlimizdəki protokollarla seçkini udmuşuq. Seçkinin qalibi faktiki olaraq, bizik. Üç məntəqə ilə bağlı iddiamız davam edir. Bundan başqa, bütün dairə üzrə olan protokollarla bağlı iddialarımız var. Sona qədər iddiamızı davam etdirəcəyik".

**MSK-nın mətbuat xidmətinin rəhbəri Şahin Əsədlinin musavat.com-a verdiyi məlumata görə, bütün bu deyilənlər həqiqətə uyğun deyil, sözügedən seçki dairəsi ilə bağlı yekun nəticələr MSK-nın saytında mövcuddur.**

❑ Cavanşir ABBASLI

# Milli və siyasi maraqlar deyəndə...



Hüseynbala SƏLİMOV

**Bəli, biz istəsək də, istəməsək də və nə qədər proseslərı öz iradəmizə tabe etməyə çalışsaq da, onları istədiyimiz istiqamətə yönəltməyə cəhd etsək də, zaman öz hökmünü diqtə edir...**

Hər dəfə metroda stansiyaların adları ingilis dilində elan ediləndə düşünürəm ki, hakimiyyət özünü hifz etmək üçün çox yerə meyl edə bilər, amma hara meyl etsə də, zamanla hesablaşmaq zorundadır. Zamanın əqrəbi isə fərqli bir istiqamət göstərir, hər halda, bu istiqamət Rusiya deyildir...

Amma bizim hakimiyyət Rusiyanı seçdi. Düşünürük ki, bu da müvəqqəti olacaq, təbii ki, əgər indi qlobal dünya bazarındakı tendensiya davam edərsə və enerji daşıyıcılarının qiyməti aşağı düşərsə...

O vaxt ölkənin böyük ehtimalla konkret kreditlərə ehtiyacı olacaq. Kreditləri isə müəyyən şərtlər müqabilində verirlər...

Hətta belə olmasa da, neftin qiyməti yenidən qalxmağa başlasa belə, əgər qazı nəzərə almasaq, ölkənin neft ehtiyatları tükənmək üzrədir. Bu isə o deməkdir ki, ölkə bütün digərləri kimi beynəlxalq maliyyə institutlarının qapısını kəsdirəcək. Təbii ki, biz heç də bu ölkəyə qara günlər arzulamaq niyyətində və zorunda deyilik. Kaş ki, hər şey yaxşı sovuşsun, insanlar rahat yaşasın...

Amma bir faktdır ki, hakimiyyət Qərbi seçmədi. Ona görə seçmədi ki, Qərbin demokratiya və siyasət institutları ilə bu hakimiyyətin problemləri yaranıb, elə bu səbəbdən də Qərbdən kənara çəkiliblər...

Bəli, indi bizə maraqlı gəlir ki, görən, Rusiya Xəzərin üstündən Suriyadakı İŞİD mövqelərini raket atəşinə tutarkən bizim hakimiyyətin razılığını alıbmı?..

Fəqət, yada salaq ki, axırıncı prezident seçkisi zamanı bu hakimiyyətə dəstək vermək üçün V.Putin az qala bütün donanmanı Bakı limanına yeritmişdi. Elə o vaxtlar söhbət düşəndə ki, kimlər daha çox rusofildir və Rusiyanın dəstəyinə söykənir, deyirdik ki, Xəzərdəki mənzərəyə baxın, onda hər şey sizə aydın və anlaşıqlı olacaq...

Doğrusu, indi də özümüzü inandırmağa çalışırıq ki, yox, sadəcə, bizə belə gəlir, hər şey reallıqda daha mürəkkəbdir. Amma baxıb görürsən ki, yox, elə şeylər var ki, onları görməmək tamam mümkünsüzdür...

Amma siyasət siyasətdir. Həyat davam edir. Ona görə də Azərbaycan ətrafındakı geosiyasi teatra ötəri bir nəzər salmaq istədik. İndi ətrafda bir az fərqli vəziyyət yaranır...

Təbii ki, mən ilk növbədə İranı nəzərdə tuturam. Bu yaxınlarda dedilər ki, Qərb bu ölkəyə qarşı tətbiq olunan sanksiyaları götürməyə başlayıb. Ona görə də İran bölgədə yeni geosiyasi vektor kimi təzahür edir...

Belə mənzərə Azərbaycana nə vəd edir? Burada iki detalı vurğulamaq lazım gələcək. Birincisi, İran özünün Qərblə problemlərini daim Azərbaycanla paylaşmaq və onu öz problemlərinin orbitinə cəlb etmək istəyirdi. Bəli, indi bu təhlükə bir az sovuşub. Düzdür, İranda antiqərb, antiABŞ ritorikası hələ səngiməyib. Bu yaxınlarda ölkənin ali dini rəhbəri Ə.Xameneyi ABŞ-la nüvə danışıqlarından savayı bütün danışıqları yasaq etmişdi...

Bu, onu göstərir ki, problem hələ özünü tükəndirməyib. Elə ABŞ və digər Qərb dövlətləri də İran rejimini hələ axıradək, necə deyərlər, həzm etməyiblər, bilavasitə bu ölkədəki siyasi rejimlə bağlı tətbiq olunan sanksiyaları götürmək niyyətində deyillər...

İran rejimi isə qalır. Onun dəyişməsi və yaxud transformasiya olunması hələki müzakirə predmeti deyil...

Azərbaycanla bağlı ilişgilər üçün də problem yaradan detallardan biri budur və heç kim üçün sirr deyil ki, İran bir ideoloji dövlətdir, özünün ideologiyasını və siyasi sistemini Azərbaycanda da yaymağa cəhd edir...

Ona görə də geosiyasi səhnəyə baxanda görürsən ki, vəziyyət bəzilərinin düşündüyü qədər də primitiv və ya sadə deyildir. Bu səhnədə Azərbaycanın dostu yoxdur. Bəli, Azərbaycan hakimiyyətinin dostları var, amma gəl ölkənin dostları yoxdur...

Bəlkə də kimsə düşünür ki, Azərbaycan o qədər kiçik dövlətdir ki, onun milli maraqlarını hakimiyyətin milli maraqları içərisində əritmək olar...

Amma belədirmi? Təbii ki, yox. Ola bilsin, dövlətlərin coğrafi ölçüləri onların milli maraqlarının çevrəsini bir az daraldır. Amma milli maraqlar həmişə hansısa siyasi qüvvənin maraqlarından daha üstün, geniş və önəmlidir. Fəqət, bizlər o qədər biganələşmişik ki, qətiyyən bunun fərqində deyilik. Elə ölkəyə də milli kimliyimizin ünvanı və mənbəyi kimi deyil, az qala bir mehmanxana kimi baxırıq...





# Ümid Partiyasından Araz Əlizadə müəmmasına dair açıqlama

## "Şikayətlərimizi vermişik və onların nəticələrini gözləyirik"

**Parlament seçkiləri bitsə də, 35 saylı Xətai üçüncü seçki dairəsinin namizədləri olan Ümid Partiyasının sədri İqbal Ağazadə və ASDP sədri Araz Əlizadə arasında gərginlik davam edir.**

Yayılan məlumatlara görə, İqbal Ağazadə və onun yaxınları ilə mübahisələrə səhhəti dözməyən Araz Əlizadə bərk xəstələnərək yatağa düşüb. Eyni zamanda ictimaiyyətdə yayılan başqa bir məlumatda bildirilir ki, Araz Əlizadə mətbuata açıqlama vermək istəmədiyi, bu proseslərdən kənar qalmaq istədiyi üçün yaxınları vasitəsilə bu cür məlumatlar yayıb.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a İqbal Ağazadənin müavini Ənvər Ağazadə danışıb. O bildirib ki, Araz Əlizadə ilə münasibətlərində heç bir gərginlik olmayıb:**

"Araz Əlizadə ilə heç bir qalmaqal yaşamamışıq. Biz çox normal bir şəkildə, hüquq müstəvisində öz mübarizəmizi aparırıq. Mitinq etmirik, hər hansı bu formada aksiya keçirmirik ki, nə isə deyələr. Şikayətlərimizi vermişik və onların nəticələrini gözləyirik. Seçki günü də nə Araz Əlizadə, nə də onun nümayəndələri məntəqələrdə olmadılar. Yəni seçki məntəqələrində də elə bir gərginlik müşahidə olunmayıb. Sadəcə, sonda seçkinin nəticələri ilə bağlı protokollar dəyişdirilib. Biz də bununla bağlı şikayətimizi etmişik. Araz Əlizadənin də səhhətində problem yaranıbsa, Allah şəfasını versin. Bunun bizimlə heç bir əlaqəsi yoxdur. Allahın işinə qarışa bilmərik. Araz Əlizadə haqqında yayılan bu xəbərin həqiqət olub-olmaması ilə bağlı biz heç bir fikir bildirə bilmərik. Bunu nə məqsədlə yayırlarsa, o da mənə məlum deyil. Seçkinin nəticələri ilə bağlı da Mərkəzi Seçki Komissiyasında şikayətimizə baxacaqlar. Ondan sonra daha dəqiq məlumat verəcəyik".

❑ Əli RAİS

# "Yaxın günlərdə Bakıya dönəcəyəm"

## Rza İbadov: "Mən son 10 ildə xarici ölkədə yaşasam da həmişə prezident İlham Əliyevə sadiq olmuşam"

**"Mənim üzərimdən axtarış qərarının götürülməsinə görə cənab prezident İlham Əliyevə öz dərin minnətdarlığımı bildirirəm. Həmçinin bu işdə köməyi keçmiş hər kəsə təşəkkür edirəm".**

Modern.az saytı xəbər verir ki, bu sözləri strateq.az-a açıqlamasında Milli Məclisin sabiq deputatı, hazırda Londonda yaşayan Rza İbadov bildirib.

R. İbadov bəyan edib ki, bu illər ərzində Azərbaycandan kənarda yaşasa da həmişə dövlət başçısına sadiq olub. "Mən son 10 ildə xarici ölkədə yaşasam da həmişə prezident İlham Əliyevə sadiq olmuşam. Son 25 il ərzində içində olduğum siyasi proseslərdə həmişə bu xətti yürütmüşəm",- deyə R. İbadov vurğulayıb.

Keçmiş deputat Azərbaycana dönməyə hazırlaşır. Onun sözlərinə görə, yaxın müddət ərzində vətənə qayıdacaq. " 1-2 həftəyə Bakıya qayıdacağam",-deyə R.İbadov vurğulayıb.

Qeyd edək ki, sabiq deputat barəsində olan axtarış işinə Nəsimi Rayon Məhkəməsinin 27 oktyabr 2015-ci il tarixli qərarı ilə xitam verilib.



Rza İbadov

Sabiq deputat Cinayət Məcəlləsinin 148-ci (təhqir) və 147.2-ci (ağır və ya xüsusi ilə ağır cinayətdə ittiham etməklə böhtan atma) maddələri ilə təqsirli bilinirdi. Rza İbadov 1966-cı ildə Naxçıvanda anadan olub. O, 1991-ci ildə Lomonosov adına Moskva Dövlət Universitetinin tarix fakültəsini bitirib. 1990-1995-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üzvü olub, eyni zamanda Gənclər və idman komissiyasının sədri işləyib.

1995-2000-ci illərdə isə Azərbaycan Respublikası Milli Məclisinin üzvü, Beynəlxalq Münasibətlər və Parlamentlərarası əlaqələr komissiyasının sədri olub.

O, Londonda yerləşən ABŞ-ın Huron Universitetində beynəlxalq münasibətlər üzrə magistr, sonra Fransa Beynəlxalq Münasibətlər institutunun nəzdində fəaliyyət göstərən Strateji və Diplomatik Tədqiqatlar Mərkəzində beynəlxalq münasibətlər üzrə doktorluq dərəcələri alıb.

YENİ MÜSAVAT
N 247 (6275) 6 noyabr 2015



# Meşədə azanların qışqırığı

Zamin HACI
zaminhaci@gmail.com

**Ölkədə məhkəmə kompleksləri açmaqla deyil, azərbaycanlıların hüquq-mühafizə orqanlarına etibarı sıfırdan da aşağıdır. Mənfidir, riyazi dildə yazsaq.**

Örnək üçün, MTN şefi işdən çıxarılandan sonra mətbuat səhifələri, xəbər lentləri haqqı pozulan insanların ah-naləsi ilə dolub daşmaqdadır. Biri deyir, məni MTN-ə aparıb soydular, o biri deyir, atamı öldürdülər, üçüncüsü yazır ki, çekistlər babalarımın qəbirlərini ekskavatorla dağıdıb qızıl axtarırdılar. Açıq yazsaq, goreşənlik edirmişlər. Bəzən görürsən hansısa xırda cinayətkar qəbiristanlıqdan məhəccər söküb satdığı yerdə tutulur, bunun videosunu efirə verirlər, telekanalizasiya zəhmətkeşləri də dəhşətli cinayət aşkarlamış peşəkar ədasıyla yazığı qınayırlar, amma burda MTN-in bütöv bir qədim qəbiristanlığı eşməsindən söhbət gedir ey!

Yaxşı, bu qədər cinayət işi olan halda niyə başqa orqanlar susublar? Niyə bu adamların dərdinə polis, prokurorluq, icra hakimiyyəti, məhkəmələr əlac etməyibdir? Özümüzü avam yerinə qoyub hesab edək bu işlərin hamısını Eldar Mahmudovun "riyakar bandası" təkbaşına törədibdir. Bəs ən azından qanunlara nəzarət funksiyası olan prokurorluq nə edib? Bu qədər insanın qışqırtısını eşitməyiblər?

Hesab edək MTN günahsız adamları zindana salırdı. Bəs məhkəmə hakimlərinin hökmləri nə olsun? Onları da çovdarovlar imzalamayıb axı.

İki gün qabaq xəbər lentində kədərli bir ailə faciəsi haqda oxudum. Qadınla kişi boşanıblar, iki uşaq ananın yanında qalıb. Uzun müddət keçsə də ata sayılan yaramaz bu uşaqlara aliment ödəməyib. Qadın şikayət edib. Polis atanı 15-20 günlük həbsə atıb. Həbsdən çıxan kişi qırığı qisas məqsədiylə dərhal gedib ananı öldürüb. İndi bu debil həbsdə (oxuculardan üzr istəyirəm, söyməyə bilmədim), ana da ölüb, iki balaca uşağa kim baxacaq? Onların axırı nə olacaq?

Məncə bu vəziyyətin yaranmasında polisin də böyük suçu var. Axı polis təkcə ölüm baş verəndən sonra kimisə tutmaq üçün deyil. Profilaktika deyilən bir şey də var. Cinayətləri önləmək tədbirləri görülməlidir. Yazdığım halda isə daha çox provokator rolu oynayıblar.

Başqa bir olay Astarada yaşanıb. Məktəbli uşaq meşədə azıb, itib. Yalnız 6 gündən sonra yolu tapıb evə qayıda bilib. Region TV-lərindən birində - Kəpəz TV-də bu haqda süjet verilmişdi. 11-ci sinifdə oxuyan *(Allah kəssin belə oxumağı - izahı növbəti abzasda)* uşaq deyirdi ki, həmin günlər qoz yeyib aclığını dəf edib, gecələr ağacda yatırmış, çox qorxubmuş.

Az qala "milli Mauqli"-mizə çevriləcək bu fağır oğlanın əhvalatında məni başqa detal düşündürdü: reportajdan belə çıxırdı ki, uşaq bir həftəyə yaxın yoxa çıxsa da onu heç kim axtarmırmış! Nə polis, nə FHN, nə məktəb, nə də valideynlər! Elə bil uşağın 6 gün gecə-gündüz evə gəlməməsi çox təbii haldır. Əgər uşağın valideynlərində hüquq-mühafizə orqanlarına inam, etimad olsaydı yəqin dərhal xəbər verərdilər. İndiki halda isə adamlar qorxublar: "Sahə müvəkkili gələcək, bizi sıxışdırıb pul istəyəcək. Sonra aylarla prokurorluq yolunda qalacağıq. Deyəcəklər, uşağa neyləmisiniz ki, evdən qaçıb. Azdığını kimə sübut edəcəyik? Bunlar söz qanırlar? Ona ver, buna ver... Ondansa sakit oturaq, bəlkə uşaq özü qayıtdı gəldi. Ya mədət. Ay arvad, heç kənd adamlarına da deməyin, söz ora-bura çıxmasın".

Bunu yaza-yaza yadıma oxşar vəziyyət haqda lətifə düşdü. Bir nəfər meşədə azır, gecə qaranlıq düşür, bu da qorxusundan "Kömək edin, kömək edin!" qışqıra-qışqıra qaçır. Birdən görür kimsə əlini çiyninə qoydu. Dönür baxır ki, yekə, qıllı bir ayıdır, özü də qış yuxusundan vaxtsız durmuş kimi sifətindən zəhrimar yağır. Ayı deyir: "Nə olub, adə, yekə kişisən, nə üçün qışqırırsan?". Adam titrəyə-titrəyə deyir: "Köməyə çağırırdım, dedim bəlkə kimsə səsimi eşidər, gələr". Ayı deyir: "Bax, mən eşitdim gəldim, xeyrin oldu?".

# NATO Rusiyanı hədələdi

## Yens Stoltenberq: "NATO qarşıdurma axtarmır, lakin biz bütün müttəfiqlərimizi müdafiə etmək üçün hazırıq"



**NATO-nun Baş katibi Yens Stoltenberq deyib ki, son on ildə alyansın keçirdiyi ən genişmiqyaslı hərbi təlimlər müttəfiq ölkələr və mümkün düşmənlərə aydın siqnaldır.**

Keçən ay başlayan və üç həftə sürəcək təlimlərdə 30 üzv və tərəfdaş ölkənin daxil olduğu NATO-nun 30 mindən çox əsgəri iştirak edir. Hərbi qüvvələr İtaliya, İspaniya və Portuqaliyada intensiv təlimlər keçirir.

"NATO qarşıdurma axtarmır, lakin biz bütün müttəfiqlərimizi müdafiə etmək üçün hazırıq",-deyə o bildirib.

Çərşənbə günü vertolyotlar və tankların müşayiəti ilə yüzlərlə əsgər təlimlərin bir hissəsi olaraq İspaniyanın şimal-şərqində San Qreqario bazasında hərbi hücumun simulyasiyasında iştirak edib.

NATO bildirib ki, 12 üzv ölkənin hərbi qüvvələri girovların xilas edilməsi, sahələrin minalardan təmizlənməsi və quru qüvvələrin hücumları kimi hücum əməliyyatlarında iştirak edib. Alyans bildirib ki, təlimlər zamanı ABŞ-ın 500 nəfərlik desant qrupu Şimali Karolina ştatında yerləşdiriyi Fort Braqq bazasından birbaşa uçaraq təlimlərə qatılıb.

Yens Stoltenberq bildirib ki, NATO Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı ATƏT-ə bütün üzv ölkələr, habelə Rusiya da daxil olmaqla dünyanın başqa ölkələrindən müşahidəçiləri təlimlərə dəvət edib.

olaraq İspaniyanın şimal-şərqində San Qreqario bazasında hərbi hücumun simulyasiyasında iştirak edib.

NATO bildirib ki, 12 üzv ölkənin hərbi qüvvələri girovların xilas edilməsi, sahələrin minalardan təmizlənməsi və quru qüvvələrin hücumları kimi hücum əməliyyatlarında iştirak edib. Alyasn bildirib ki, təlimlər zamanı ABŞ-ın 500 nəfərlik desant qrupu Şimali Karolina ştatında yerləşdiyi Fort Braqq bazasından birbaşa uçaraq təlimlərə qatılıb.

Yens Stoltenberq bildirib ki, NATO Avropada Təhlükəsizlik

Oktyabrın 19-da başlayan NATO təlimləri noyabrın 6-na qədər davam edəcək. Təlimlərdə 230 hərbi birləşmə, 140-dan çox hərbi təyyarə və 60-dan hərbi gəmi iştirak edir. (amerikaninsesi.org)Yens Stoltenberq deyib ki, son on ildə alyansın keçirdiyi ən genişmiqyaslı hərbi təlimlər müttəfiq ölkələr və mümkün düşmənlərə aydın siqnaldır.

Keçən ay başlayan və üç həftə sürəcək təlimlərdə 30 üzv və tərəfdaş ölkənin daxil olduğu NATO-nun 30 mindən çox əsgəri iştirak edir. Hərbi qüvvələr İtaliya, İspaniya və Portuqaliyada intensiv təlimlər keçirir.

"NATO qarşıdurma axtarmır, lakin biz bütün müttəfiqlərimizi müdafiə etmək üçün hazırıq",-deyə o bildirib.

Çərşənbə günü vertolyotlar və tankların müşayiəti ilə yüzlərlə əsgər təlimlərin bir hissəsi və Əməkdaşlıq Təşkilatı ATƏT-ə bütün üzv ölkələr, habelə Rusiya da daxil olmaqla, dünyanın başqa ölkələrindən müşahidəçiləri təlimlərə dəvət edib.

Oktyabrın 19-da başlayan NATO təlimləri noyabrın 6-na qədər davam edəcək. Təlimlərdə 230 hərbi birləşmə, 140-dan çox hərbi təyyarə və 60-dan hərbi gəmi iştirak edir. (amerikaninsesi.org)

# Politoloqdan pessimist yanaşma

## Elxan Şahinoğlu: "Qarabağ məsələsində nə Rusiya, nə də Qərbdən mədət ummalıyıq..."

**"Avropa Şurası məruzəçisi Robert Valterin "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal altındakı ərazilərində zorakılığın artmasına dair" hazırladığı hesabatında Ermənistandan işğal altındakı torpaqları boşaltması tələbini gündəmə gətirməsi gözlənilən idi". Bunu "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu AŞ PA-nın Siyasi Məsələlər Komitəsində dünən qəbul edilən sənədi qəzetimizə şərh edərkən bildirdi.**



Onun sözlərinə görə, AŞ PA bütün digər qətnamələrində Azərbaycanın ərazi bütövlüyü prinsipindən çıxış etdiyindən, Ermənistan qurumda Dağlıq Qarabağla bağlı yaradılan alt komissiyanın işinə qatılmaqdan yayınır: "Çünki bilir ki, AŞ PA üçün önəmli olan üzv ölkələrin ərazi bütövlüyüdür. Doğrudur, AŞ PA Azərbaycanda insan haqları və demokratiya ilə bağlı tənqidi qətnamələr qəbul edir. Ancaq axı bizim üçün önəmli olan Qarabağdır. Bu məsələdə isə AŞ PA birmənalı olaraq Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir".

**AŞ PA-nın belə prinsipial mövqedən çıxış etdiyi bir dövrdə Rusiya sülhməramlılarının "KTMT bayrağı" altında Qarabağda yerləşdirilməsi barədə xəbərlər də intensiv şəkil alıb. E.Şahinoğlu bu xüsusda Ermənistan mediasında KTMT-nin baş katibinin müavini Valeri Semerikovun bir müddət öncə İrəvanda verdiyi açıqlamaya diqqət çəkdi:** "Rusiyalı rəsmisi guya deyib ki, "bizim təşkilat yalnız KTMT-yə üzv ölkələrin ərazisində deyil, ondan kənarda da sülhməramlı missiya gerçəkləşdirə bilər və bu sırada Dağlıq Qarabağ da var". Bu açıqlamanın dəqiqləşdirilməsinə ehtiyac var. Çünki xəbəri Ermənistanın "Aykakan Jamanak" qəzeti yayıb. Ermənistan mediası isə adətən başqalarının Azərbaycan haqqında açıqlamalarına "zəruri əlavələr" edir. Dəfələrlə olub ki, Rusiya və Qərb rəsmiləri və diplomatları İrəvanda dediklərinin yanlış yayınlandığını bildirərək, fikirlərinin doğru çatdırılmamasından şikayət ediblər. Buna baxmayaraq, bütün hallarda rəsmi Bakı rusiyalı rəsminin belə bir açıqlama verib-vermədiyini aydınlaşdırmalıdır. Əgər KTMT Semerikov həqiqətən təşkilatın Dağlıq Qarabağa sülhməramlı qüvvələr göndərilməsi mümkünlüyünü dilə gətiribsə, ona müvafiq cavab verilməlidir. Birincisi, Azərbaycan KTMT üzvü deyil və Azərbaycanın razılığı olmadan bu təşkilat Dağlıq Qarabağda silahlı qüvvələrini yerləşdirə bilməz. İkincisi, KTMT dedikdə Rusiya başa düşülür. Rəsmi Bakı isə Dağlıq Qarabağda yalnız Rusiya "sülhməramlılarının" yerləşdirilməsinə razılaşa bilməz. Bu, faktiki, Dağlıq Qarabağın itirilməsinə gətirib çıxaracaq. Təşkilatın silahlı qüvvələrində quruma daxil olan Qazaxıstanın, Belarusun və Qırğızıstanın silahlı qüvvələri də önəmli paya malik olsaydı, onların Dağlıq Qarabağda yerləşdirilməsini müzakirə etmək olardı. Çünki adıçəkilən hər bir dövlətin Azərbaycana tərəfdaş münasibətləri var və bu dövlətlər Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər. Rusiya "sühməramlılarının" Dağlıq Qarabağda yerləşdirilməsi 1994-cü il ATƏT-in Budapeşt sammitinin qətnaməsinə də ziddir. Həmin sammitin qərarına görə, Dağlıq Qarabağda hər hansı dövlətin sülhməramlı qüvvələrinin nisbəti ümumi sayın 30 faizini aşmamalıdır. Daha sonrakı qərara görə isə sülhməramlı qüvvələr işçərisində maraqlı (həmsədr) dövlətlərin - Rusiya, ABŞ və Fransanın silahlı qüvvələri olmamalıdır. NATO illərdir Dağlıq Qarabağ məsələsində Azərbaycanın mövqeyini müdafiə edir, ərazi bütövlüyü prinsipini ön plana çəkir".

**Politoloq xatırlatdı ki, NATO Parlament Assambleyasında da işğal altındakı Azərbaycan torpaqlarının boşaldılması vacibliyi vurğulanır:** "ATƏT-in demədiyini NATO bildirir. Elə tək bu amilə görə Azərbaycan NATO ilə əməkdaşlığı genişləndirməyə çalışmalıdır. Məhz bu səbəbdən Qarabağ məsələsində NATO ilə Rusiyanın mövqeləri üst-üstə düşmür. Hələ heç bir rusiyalı rəsminin dilindən "işğal altındakı torpaqlar boşaldılmalıdır" fikrini eşitməmişik. Bununla belə, Qarabağ məsələsində NATO ilə Rusiyanın toqquşacağını proqnozlaşdırmıram. Çünki təəssüflə qeyd etməliyəm ki, həm Qərb dövlətləri, NATO, həm də Rusiya üçün münaqişənin həlli arxa planda yer alıb. Qərblə Rusiya Ukrayna və Suriya məsələsinə görə baş-başa gəliblər. Hər iki qütb münasibətlərdə əlavə problem yaşamaq istəmirlər. Ona görə də Qarabağ məsələsinin həllində biz nə Rusiya, nə də Qərbdən mədət ummalıyıq. Özümüz hərəkətə gəlməsək, başqa bir qüvvə bizim əvəzimizə problemi həll etməyəcək".

❑ E.PAŞASOY

**Azərbaycanda keçirilmiş 1 noyabr parlament seçkilərinə Qərb paytaxtlarından reaksiyalar gəlməkdədir. Rəsmi Bakı üçün mühüm əhəmiyyət kəsb edən ABŞ Dövlət Departamentinin mövqeyi isə özünü çox gözlətməyib.**



# ABŞ-dan seçki ilə bağlı ziddiyyətli mövqelər: Morninqstar dinləmə keçirir

## "Demokratiyanın beşiyi" seçkilərlə bağlı "təəssüf"ünü bildirir, "narahatlıq" keçirir, dinləmələrə qərar verir, ancaq əməkdaşlıq da edir



Departamentin açıqlamasında Azərbaycan hökumətinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) seçkilərə lazımi sayda müşahidəçinin gəlməsinə imkan verməməsindən, buna görə də ATƏT-in seçkiləri müşahidə etmək imkanı olmamasından təəssüf ifadə olunub. "ATƏT-in iştirakı olmadan biz fundamental azadlıqlara qoyulan məhdudiyyətlərin aradan qaldırılmasına dair bu qurumun əvvəlki məsləhətlərini icra etməkdə Azərbaycanın irəliləyişə nail olduğunu deyə bilmərik. Ölkədə məhdud siyasi mühit olmasına dair narahatlığımız davam edir və biz Azərbaycan hökumətini sərbəst toplaşma, birləşmə azadlıqlarına, ölkənin beynəlxalq öhdəliyi olan fikir azadlığının, o cümlədən media azadlığının təmin edilməsinə hörmətlə yanaşmağa, həmçinin bu istiqamətdə DTİHB də daxil olmaqla, ATƏT-lə işləməyə çağırırıq. Biz Azərbaycan hökuməti və xalqı ilə güclü, sabit, demokratik və firavan gələcək qurmaq istiqamətində işləməyə sadiq qalırıq", - deyə açıqlamada qeyd olunur. Göründüyü kimi, Vaşinqton narahatlığını ifadə etməklə yanaşı, əməkdaşlığa üstünlük verdiyini də gizlətmir. Azərbaycanın sanksiyalara məruz qoyula biləcəyi barədə iddialara rəğmən Vaşinqton Bakıya əməkdaşlığı davam etdirməyi təklif edir.

Qeyd edək ki, bundan öncə ABŞ-ın ölkəmizdəki səfiri Robert Sekuta da olduqca ehtiyatlı açıqlaması ilə diqqət çəkib. Diplomat deyib ki, ABŞ Azərbaycan parlamenti ilə əməkdaşlığı davam etdirəcək. Cənab Sekutanın seçki ərəfəsi müxalifətlə təmaslarını xatırlasaq, onun açıqlamasında müxalifətin aparıcı partiyalarının seçkidə iştirak etməməsi, yaxud mandat qazanmaması barədə heç nə deyilməməsi ziddiyyətli suallar doğurur.

Bəzi ekspertlər hesab edir ki, Amerika səfirinin son dərəcə ehtiyatlı mövqeyi bundan əvvəlki illərdə bəzi Amerika səfirləri ilə Azərbaycan hakimiyyətinin sərt münasibətinin olmasından qaynaqlanır. Bu səbəbdən də səfir maksimum ölçülü-biçili davranır.

**ABŞ-ın Azərbaycanla bağlı ziddiyyətli mövqeyini şərh edən "Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev "Yeni Müsavat"a bildirdi ki, bu mövqe Vaşinqtonun Azərbaycandakı parlament seçkilərinin nəticələri ilə barışdığını təsdiqləyir:** "ATƏT-in və ABŞ-ın seçkilərdə iştirak etməməsi də əslində seçkinin bu formada keçirilməsinə razılıq verilməsi demək idi, əvvəldən faktla barışmağın nəticəsi idi. Sadəcə olaraq, sonrakı qiymətləndirmələrin hamısında "təəssüf" məsələsi var, qınaq, sərt ifadələr yoxdur. Yəni müşahidə yoxdursa, deməli, qınaqlar da olmayacaq. Eyni zamanda rəylər belə də olmalıydı. Bunlar deyə bilməz ki, seçki çox gözəl keçdi. Siyasi mövzuda problemlər, sadəcə olaraq, ona görə xatırladılır ki, yaxşı, seçki ötüb keçdi, ortadakı problemləri həll etmək lazımdır. Yəni demək istəyirlər ki, biz növbəti addımların atılacağını gözləyirik. Ümumi mesaj bundan ibarətdir".



## Mehman Əliyev: "Amerika Bakı ilə üç məsələdə razılaşıb"

**M.Əliyev ABŞ-ın Azərbaycandakı səfirliyinin ehtiyatlı mövqedən çıxış etməsini anlaşılan sayır:** "Ehtiyatlı mövqe onunla bağlıdır ki, yaxın gələcəkdə hansı addımların atılacağı ilə bağlı razılaşmalar var. Sadəcə olaraq, Amerika, Qərb tərəfi bu razılaşmaların prezident Əliyev tərəfindən təsdiq olunub-olunmayacağını gözləyir. Onlar bu mənada ehtiyatlıdırlar və hansı addımların olacağını gözləyirlər. Necə ki, seçkidən sonra bəzi razılaşmalarla bağlı qərarlar verildi. Birincisi, NATO yüklərinin Azərbaycan üzərindən Əfqanıstana daşınması, bizim bu prosesdə iştirakımızla bağlı qərar qəbul olundu. İkincisi, Amerika vətəndaşlarının Azərbaycanda, Azərbaycan vətəndaşlarının isə ABŞ-dakı fəaliyyəti və onların gəlirlərinin qarşılıqlı şəkildə açıqlanması barədə razılaşma əldə olundu. Bu, Amerikanın beynəlxalq sistemidir. ABŞ-da qanun qəbul olunub ki, hansı ölkələrdə onun vətəndaşları çalışırsa, mütləq həmin ölkələr bu insanların əldə etdiyi gəlirlə bağlı məlumat verməlidir. Azərbaycanda bu qanun bir neçə il əvvəl qəbul olunub, 2013-cü ildə onun icrası başlamalıydı, lakin 2014-ə qədər uzatdıq, hətta sanksiya hədələri də oldu. Yalnız keçən ilin mayında əməkdaşlığa başladıq və ABŞ ilin sonuna müddəti uzatdılar, yalnız bu il, 30 sentyabrda parlament qərar qəbul etdi və prezident sənədi təsdiqlədi. Üçüncü razılaşma isə bundan ibarətdir ki, Neftayırma Zavodunun yenidən qurulması ilə Amerika şirkəti məşğul olacaq".

Amma bu da var ki, ABŞ Senatı seçkilərə iki gün qalmış Azərbaycanla bağlı dinləmələr keçirdi və ölkəmizi tənqid etdi. Seçkilərdən sonra isə noyabrın 5-də Amerika Konqresi analoji dinləmələr keçirib. Görünən budur ki, ABŞ bir tərəfdən Azərbaycanla konkret olaraq M.Əliyevin sadaladığı layihələrlə bağlı əməkdaşlıq edir, digər tərəfdən isə Bakıya təzyiq rıçaqlarını kənara qoymur, həm "tikanlı" bəyanatları, həm də davamlı dinləmələri ilə Azərbaycan hökumətini təzyiq altında saxlamağa çalışır.

**Bu ziddiyyətli situasiyanı təhlil edən M.Əliyev deyir ki, onlar seçki məsələsinə göz yumdular:** "Fakt budur ki, Qərb seçkidə iştirak etməyib. Digər tərəfdən də onlar siyasi sahədə dəyişikliklər gözləyirlər. Hesab edirəm ki, Azərbaycan tərəfi seçkinin bu formada keçiriləcəyi barədə qərar qəbul edib, amma arxasınca müəyyən islahatların olacağını bildirib. İndi daha çox korrupsiyadan danışılır, məmurların üstünə gedilir, iş adamlarının yoxlanılmaması, "ASAN xidmət"in funksiyalarının genişləndirilməsi ilə bağlı addımlar atılır. Ancaq söhbət ondan gedir ki, gündəmdə təkcə iqtisadi yox, siyasi islahatların da aparılması məsələsi durur. Bununla bağlı da Amerika xatırladır ki, "yaxşı, seçki prosesi bitdi, biz gözləyirik, islahatlara başlayın"".

**ABŞ Konqresindəki dinləmələrində sabiq səfir Riçard Morninqstarın məruzəçi təyin olunması da maraqlı məsələdir. Bunu təsadüf saymayan M.Əliyev Morninqstarın sıradan bir şəxs olmadığını, Amerikada kifayət qədər böyük vəzifələrdə işlədiyini vurğuladı:** "Azərbaycanda səfir olması bəlkə onun üçün ən kiçik status olub. O, Azərbaycanla sıx bağlı olub, Heydər Əliyevlə və İlham Əliyevlə işləyib, Azərbaycanı yaxşı tanıyır. Digər tərəfdən, o, Amerika hökumətinin iradəsini həyata keçirən şəxsdir. Əlbəttə ki, o, çıxışında demokratiya məsələlərini vurğulayacaq. Elə Bakıda olanda da Azərbaycan hökumətinə çağırışlar edirdi. Əslində iki yol var, amerikalılar həmişə bu barədə fikir səsləndiriblər. Yəni təkamül yolu var, hakimiyyət yuxarıdan addımlar atmalıdır, əks təqdirdə, dəyişiklik aşağıdan başlaya bilər. Onların dediyini heç kəs gözləmirdi, buna inanan yox idi. Ancaq son ildə ölkədə vəziyyət pisləşdi. İslahatlar aparılmasa, vəziyyət daha çox pisliyə doğru gedəcək. Ona görə son vaxtlar verilən qərarlar onu göstərir ki, hakimiyyət artıq problem qəbul edir və nəsə etmək istəyir".

**ABŞ-dakı müzakirələrin məntiqi sonluğu necə olacaq? Sonucda Azərbaycana qarşı sanksiya hədələri ortaya çıxa bilərmi? M.Əliyev:** "Müəyyən çağırışlar yenə də olacaq. Onlar birbaşa hədələməyəcəklər ki, biz filan addımları ata bilərik. Amma tövsiyələr olacaq. Güclü dövlətlər, şəxsiyyətlər heç vaxt hədələmirlər. Həmişə deyirlər ki, "biz belə olmasını istərdik", "belə olsa, yaxşı olardı"... Ancaq bunun arxasında ciddi məna durur. Bu mənada mən ciddi təpki gözləmirəm. Çünki bu tərəf qarşıdurmaya hazır deyil və maraqlı görünmür. Görünür, Əfqanıstan, neft məsələsində əməkdaşlığın davam etdirilməsi vacib sayılır. Vəziyyət bunu diktə edir. Artıq iki-üç il əvvəlki vəziyyət deyil. Ümumiyyətlə, 2012-ci ildən bp ilə konflikt yaranandan sonra münasibətlərdə kəskin mərhələ başladı. İlham Əliyevin "siz Azərbaycan xalqının 8 milyardını aparmısınız, bizə ziyan vurmusunuz" kimi ittihamları oldu. Bundan sonra neftin istehsalı sürətlə düşməyə başladı və bunlar artıq narahat olmağa başladılar. Son 4-5 ildə biz neft istehsalında 10 milyon itirmişik. Üstəgəl, qiymətlərin düşməsi də ciddi zərbədir. Hakimiyyət artıq başa düşür ki, nəsə etmək lazımdır. Ancaq indiki dövrdə yalnız iqtisadi addımların atılması bəs eləmir".

❑ **E.PAŞASOY**

# Azərbaycan inkişaf etmiş ölkələr sırasında 8 pillə irəlilədi

**Britaniyanın məşhur analitik mərkəzi Legatum Institute tərəfindən 2015-ci il üçün tərtib edilmiş reytinqdə Azərbaycan dünya ölkələri arasında 71-ci yeri tutub.**

İnterfax.az xəbər verir ki, keçən ilin göstəriciləri ilə müqayisədə Azərbaycan səkkiz pillə irəliləyib.

Ümumilikdə Azərbaycan reytinqdə 2012-ci ildə tutduğu 94-cü yerdən 2015-ci ildə 71-ci yerə qalxaraq, 23 pillə yüksəlib. Bu, Cənubi Qafqaz ölkələri arasında ən yaxşı dəyişiklikdir. Belə ki, Ermənistanın göstəriciləri cəmi 6 pillə - 98-ci yerdən 93-cü yerə qədər dəyişib, Gürcüstanın göstəriciləri isə 13 pillə - 93-cü yerdən 80-ci yerə qədər yüksəlib.

Müxtəlif göstəricilərə görə baxsaq, iqtisadiyyat və sahibkarlıq fəaliyyətinə görə Azərbaycan müvafiq olaraq 51-ci və 70-ci yerlərdədir. Legatum Institute-ın ekspertləri Azərbaycanı təhsil göstəricisinə görə 82-ci yerdə, səhiyyə göstəricilərinə görə isə 68-ci pillədə yerləşdiriblər.

Təhlükəsizlik və sosial kapital göstəricilərinə görə Azərbaycan 71 və 80-ci yerlərdə qərar tutub, həmçinin dövlət idarəsi göstəricisinə görə 9-cu, şəxsi azadlığa görə isə 92-ci yeri tutub.

İndeks 142 dövləti əhatə edir. Liderlər üçlüyünə Norveç, İsveçrə və Danimarka daxildir.

Legatum İnstitutunun (The Legatum Prosperity Index) rifah indeksi Britaniyanın The Legatum Institute Mərkəzinin birləşdirilmiş göstəricisidir, burada dünya ölkələrinin inkişafı nöqteyi-nəzərindən əldə etdikləri nailiyyətləri ölçülür.

# Ölkəmiz 7 milyard dollar borca girir

**Azərbaycan beynəlxalq maliyyə qurumları ilə birgə Cənub Qaz Dəhlizinə maliyyə vəsaiti cəlb edilməsi üzərində işləyir. Bunu SOCAR-ın Sərmayələr İdarəsinin rəhbərinin müavini Zaur Qəhrəmanov bildirib.**

Onun sözlərinə görə, bu istiqamətdə Maliyyə Nazirliyi Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası və digər beynəlxalq maliyyə qurumları əməkdaşlıq edir: "Səmərəli olsa, kredit cəlb olunacaq. Bununla bağlı danışıqlar gedir. Çalışacağıq ki, bu krediti aşağı faizlərlə götürək. Cənub Qaz Dəhlizinin ümumi dəyəri 45 milyard dollardır. Bunun təxminən 14 milyard dolları Azərbaycanın payına düşür ki, bunun 7 milyard dolları kreditlə cəlb olunacaq".

Qeyd edək ki, "Cənub Qaz Dəhlizi" QSC-nin 51%-i İqtisadiyyat və Sənaye Nazirliyi, 49%-i isə SOCAR-a məxsusdur (APA).

YENİ MÜSAVAT
N 247 (6275) 6 noyabr 2015



# Binəqədidə sahibkarı ölümdən icra başçısı qurtardı

## O, külli miqdarda vəsait xərclədiyi iaşə obyektinin sökülməsinə etirazını bu yolla bildirib

**Binəqədi rayonu, 6-cı mikrorayonda restoran sahibi intihara cəhd edib. Noyabrın 5-də səhər saat 09:45 radələrində 50-55 yaşlarında şəxs çoxmərtəbəli binanın damına çıxaraq özünü atmaq istəyib. Hadisə yerinə çox sayda insan toplaşıb. İntihar cəhdinin qarşısını almaq üçün FHN və DİN əməkdaşları əraziyə cəlb olunub. Musavat.com-a daxil olan məlumata görə, intihara cəhd edən İlqar Məmmədov adlı şəxs "Zeytun bağı" restoranın sahibi olub. Onu bu addıma vadar edən səbəb isə restoranın sökülməsi olub. Hadisə yerinə dərhal Fövqəladə Hallar Nazirliyinin (FHN) xilasediciləri, təcili yardım briqadası, Binəqədi Rayon Polis İdarəsinin şəxsi heyəti cəlb olunub.**



Xaləddin İbrahimov

Rayon polis idarəsinin rəisi, polis polkovniki Namiq İsmayılov da hadisə yerinə gəlib və həmin şəxslə söhbət aparılıb. Lent.az-ın məlumatına görə, sahibkar olduğunu deyən şəxs daha işləyə bilmədiyini, bezdiyini bildirib, "Mənim 500 minimi qaytarın" - deyə tələb səsləndirib.

Hadisə yerinə bir neçə təcili tibbi yardım maşını və FHN-in xilasediciləri gəlib. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İbrahimov da olay yerinə gəlib.

Başçı intihara cəhd edən şəxslə 15 dəqiqə söhbət edib və onun aşağı düşməsini xahiş edib. Lakin sahibkar "Mənə yazılı iltizam verməsəniz, buradan düşməyəcəyəm" deyib. X. İsgəndərov yazılı iltizamın özündə olduğunu deyəndən sonra intihara cəhd edən şəxs binanın damından düşüb. Baş verənlərdən sonra sahibkarın sağlıq durumunda ciddi problemlər yaranıb.

**Onun yaxınlarından biri "Yeni Müsavat"a deyib ki, İlqar Məmmədova həkimlər yardım göstərib:** "Şəkəri qalxıb, özünü çox pis hiss edir. Səhər gələnlər onu həddən ziyadə əsəbiləşdirmişdilər. Xaləddin müəllim gəlib dama çıxmasaydı, İlqar müəllim özünü atacaqdı. Bezib. Gələnlər özlərini təqdim etmirlər. Deyirlər, binanı sök. Bura xeyli pul qoyulub, necə yəni sök? Sökdürürsənsə, pulunu ver".

İcra başçısı sahibkarı fikrindən daşındıra bilib. Sahibkar intihara cəhddən əl çəkib və FHN əməkdaşları tərəfindən binadan endirilib.

❑ **Məğrur SALMANOV, Elşən MƏMMƏDƏLİYEV**

# "Faiz çete"si ölkədən milyardları necə çıxarıb...

## Eks-nazirin ən yaxın çevrəsi ilə yanaşı, bu işdə bir sıra vəzifəli şəxslərin də adı hallanır; bu prosesdə "Zaminbank" rəhbərliyinin ciddi rol oynadığı iddia olunur



**Keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun adı indi də Azərbaycandan xaricə külli miqdarda nağd vəsait çıxarılmasında hallandırılır. Bu haqda "Yeni Müsavat"a daxil olan informasiyaya görə, ölkənin milli təhlükəsizliyini qorumağa məsul edilmiş Eldar Mahmudov uzun illərdir yaratdığı xüsusi dəstə vasitəsilə nağd vəsaitlərin yüksək faizlərlə ölkədən çıxarılmasını təşkil edib. "Faiz çete"sinin iş prosesi və şəbəkənin miqyası gündəlik gəlirin milyonlar, illik gəlirlərin isə milyardlarla ölçüldüyünü ortaya çıxarıb.**

Nağd pullar xaricə iki yolla çıxarılırmış - Eldar Mahmudovun nəzarətində olan bir neçə bank vasitəsilə və hava yolu ilə. "Yeni Müsavat"a daxil olan informasiyada bildirilir ki, faktın aşkarlanması AZAL üçün də ciddi başağrısına çevrilib. Külli miqdarda vəsaitin yalnız milli təhlükəsizlik nazirinin göstərişi ilə Azərbaycan Hava Yollarının təyyarələri ilə daşınması, bunun ölkə rəhbərliyindən gizlin saxlanması ortaya xeyli suallar çıxarıb.

Bundan başqa, Eldar Mahmudovun "faiz çete"si indi yüksək postlar tutan şəxslərin himayəsində olan banklarla da işbirliyinə girib. Keçmiş MTN şefinin bu gizli əməliyyatına ortaq olan həmin şəxslərin də durumu getdikcə pisləşir. Son bir həftədə həmin şəxslər bir neçə dəfə ölkədən külli miqdarda pul çıxarılması prosesinin detalları ilə bağlı sorğu-sual edilib.

Azərbaycan bankları nağd pul köçürmələri üçün bir neçə variant təklif edir. "Western Union", "Migom", "Zolotaya korona" və digər xidmətlərlə istənilən ölkəyə nağd şəkildə pul köçürmək mümkündür. Ancaq Milli Bankın qoyduğu limitə görə fiziki şəxslər bank köçürmələri vasitəsilə xaricə ən çoxu 3000 dollar vəsait köçürə bilər. Nağd pul köçürmə faizləri də digər ölkələrlə müqayisədə yüksəkdir - 1,5 faiz. Bundan başqa, bankların çoxunda maksimum məbləği "şapka"sız köçürmək mümkün deyil. Bunun üçün bankların filial rəhbərliyinə yol tapmaq, tələb olunan rüşvəti ödəmək lazımdır. Banklardakı bu durum və fiziki şəxslərin ölkədən nağd şəkildə 10 min dollardan artıq nağd vəsait çıxarmasına qoyulan qadağa kiçik və orta bizneslə məşğul olanlar üçün ciddi maneələr yaradır. İri şirkətlərdən fərqli olaraq kiçik və orta sahibkarlıqla məşğul olanlar daha çox nağd vəsait üzərindən işləyir. Eldar Mahmudovun təklif etdiyi xidmət isə xarici tərəfdaşları ilə nağd hesablaşmaq üçün yollar arayanlara yaxşı fürsət olub.

"Faiz çete"sinin ən böyük ofislərindən biri metronun "28 May" stansiyasının yaxınlığında yerləşib. Deyilənlərə görə, Azərbaycanda ölkədən 10 mindən yuxarı vəsaiti nağd çıxarmaq istəyən elə bir sahibkar yoxdur ki, yolu həmin ofisdən düşməsin. Həmin ofisdən başqa dəstənin Bakıda daha 9, Gəncədə, Lənkəranda və Zaqatalada "regional" bölmələri fəaliyyət göstərib. Ölkədə bir çox məhsullar üzərində ciddi monopoliya olduğu üçün qeyri-rəsmi "puldaşıyan şirkət"ə müraciət edənlərin çoxu geyim, ətriyyat biznesi ilə məşğul olan topdan və pərakəndə satış məntəqələrinin sahibləri olub. Məsələn, "Binə", "Sədərək" kimi ölkə əhəmiyyətli topdansatış obyektlərində çalışanlar əsasən Eldar Mahmudovun qeyri-rəsmi şirkətinin xidmətlərindən istifadə edirmiş.

"Faiz çete"sinin "tarif cədvəli" də stabil imiş - 10 min dollardan artıq vəsait Türkiyəyə 0,8, Dubaya 0,9, Çinə isə 1 faiz qarşılığında aparılırmış. Bakıda əlbəəl verdikləri pulu sahibkarlar "şirkət"in vəsait göndərilən ölkədəki ofislərindən alırlarmış.

Ancaq bu keçmiş MTN şefinin nəzarətində olan dəstənin fəaliyyətinin yalnız bir istiqamətidir. Deyilənlərə görə, Azərbaycandan çirkli pulları çıxarmaq istəyən yüksək rütbəli dövlət məmurları bu məsələdə keçmiş milli təhlükəsizlik naziri ilə işbirliyinə girib. Mahmudov həmin pulların ünvanına təhlükəsiz çatması məsələsinə ölkənin milli təhlükəsizliyi məsələsindən daha həssas yanaşıb. Çünki söhbət son dərəcə iri kapitaldan gedir. Bu məsələ ilə "faiz çete"sinin əsasən Dubay ofisi məşğul olub. Azərbaycandan çıxarılan milyardlar dünya miqyaslı azad ticarət zonası olan Dubaya axan vəsaitlər içərisində "əridilib".

Eldar Mahmudov vəzifədən kənarlaşdırılandan sonra eks-nazirin şəxsi inkasatorlarının fəaliyyəti də iflic olub. Verilən xəbərlər sırasında "faiz çete"sinə qarşı əməliyyat zamanı xeyli şəxsin saxlanması da var.

Ölkədən çıxarılan vəsaitlərə nəzarətin sərtləşdirilməsi həm özünün və yaxınlarının gələcəyini qarantiyə almaq üçün qazandığı çirkli pulları ölkədən çıxarmaq istəyən zümrəni, həm də bank sektorundakı rüşvətə görə biznesini inkişaf etdirə bilməyən sahibkarları məyus edib. Bir zamanlar Mahmudovun "faiz çete"si ilə işbirliyi quranlar hələlik çıxış yolu aramaqdadır.

Bu səbəbdən son həftələrdə satış şəbəkələrində yaranan böhranlı durumun hələ bir müddət davam edəcəyi qaçılmazdır. Çünki hakimiyyət nağd pul kütləsinin ölkədə qalmasında maraqlıdır. Neft gəlirlərinin azalmasına görə iqtisadiyyatın sürətlə geriləməsi fonunda bu proses yeni devalvasiyanı müəyyən müddətləngidə bilər.

Xatırladaq ki, ölkədən gizli şəkildə pul çıxarılması prosesində bəzi bankların imkanlarından istifadə olunub. Belə banklardan biri də "Zaminbank"dır. "Yeni Müsavat" hələ 2012-ci ilin fevralında bu haqda yazıb.

2012-ci ildə Rusiya hüquq-mühafizə orqanlarının Moskvada keçirdikləri əməliyyat nəticəsində Azərbaycandan qeyri-leqal yollarla nağd şəkildə milyonlarla dollar pul daşıyan bir neçə nəfər saxlanılıb. O vaxt saxlanılan şəxslərin Azərbaycanla əlaqələrinin olduğunu qeyd etmişdik.

Rusiya üzərindən hər həftə 20-25 milyon dollar daşıyan və bunu offşor şirkətlər üzərindən "yuyaraq", yenidən Azərbaycanın maliyyə sisteminə soxan bu dəstənin fəaliyyətinin bir ucu "Zaminbank"a qədər gedib çıxır.

İndi məlum olur ki, bu cür miqyaslı korrupsiya işində "Zaminbank" niyə aparıcı skripka olub? Sən demə, bu bankın filiallarından birinin müdiri MTN-in Transmilli Cinayətkarlıqla Mübarizə İdarəsinin sabiq rəis müavini, hazırda məhkəmənin hökmü ilə 3 aylıq həbs cəzası almış Füzuli Əliyevin qardaşıdır.

❑ **"Yeni Müsavat"**



# Avropa Şurasından Ermənistana qəfil zərbə

## "Azərbaycanın suverenliyi tam bərpa olunmalıdır"; AŞ PA-nın qış sessiyasında işğalçı ölkəni Qarabağ məsələsinə görə daha ağır zərbə gözləyir; **məruzəçi:** "Münaqişə Avropa Şurasının iki üzvü arasında real müharibəyə çevrilə bilər, əgər..."

**2015-ci il dinc nizamlama prosesinin daha bir qiymətli ili nəticəsiz başa çatmaq üzrədir. ATƏT-in Minsk Qrupunun ABŞ, Fransa və Rusiyadan olan həmsədrlərinin səylərinə baxmayaraq, belə görünür 2015 sülh danışıqları tarixinə ən passiv il kimi düşəcək. Minsk Qrupunun dişsizliyi bir yandan Rusiyanın altdan-altdan və vaxtaşırı işğalçı Ermənistanın əli ilə nizamlama prosesinə əngəllər yaratması ilə bağlıdırsa, digər yandan şübhəsiz ki, ATƏT-in bir təşkilat olaraq amorf qurum olması ilə bağlıdır. Bunu son olaraq ABŞ-ın ölkəmizdəki səfiri Robert Sekuta da dolayısıyla təsdiqləyir.**

"Hər hansı təşkilat, o cümlədən ATƏT suveren, müstəqil dövlətləri nəyəsə vadar edə bilməz". Bu sözləri o, ATƏT kimi nüfuzlu təşkilatın niyə 20 ildən çoxdur davam edən Qarabağ münaqişəsini həll edə bilməməsi barədə suala cavabında deyib.

**Diplomatın sözlərinə görə, ATƏT müharibə sonrası ölkələr üçün sülh və rifah naminə əsas baza prinsiplərini müəyyən edib:** "Bunların arasında ərazi bütövlüyü, güc tətbiq etməmək və güc tətbiqi ilə hədələməmək, öz müqəddəratını təyin etmə prinsipləri var. Burada iqtisadiyyat, insan haqları və təhlükəsizlik sahələri üzrə də məsələlər əksini tapıb. Bu təşkilat çərçivəsində ATƏT-in Minsk Qrupu həmsədrləri iki ölkəni bir araya gətirməyə, sülh yolu ilə nizamlanma istiqamətində irəliləyiş əldə etməyə çalışırlar. Bu təşkilat münaqişənin nizamlanma çərçivəsini müəyyən edir. Bu struktur olmadan biz əsrin əvvəlindəki vəziyyətə qayıda bilərik. Məhz bu baxımdan təşkilatın əhəmiyyəti bir daha diqqətə çatdırılır".

****

Avropa Şurası isə ATƏT-dən fərqli olaraq məsələdə daha prinsipial mövqe sərgiləməkdədir. AŞ PA-nın Siyasi Məsələlər Komitəsində məruzəçi Robert Volterin "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərində zorakılığın artmasına dair" hazırladığı məruzənin müzakirə edilərək qəbul edilməsi buna sübutdur.

Xatırladaq ki, sənədin bu cür adlandırılması işğalçı ermənilər tərəfində dərhal və kəskin sərt reaksiya doğurmuşdu. Ermənilər hətta məruzəçinin Ermənistana və separatçı bölgəyə səfərinə imkan verməmişdilər. Onlar bundan ötrü ilk addım kimi sənədinin adının dəyişdirilməsini tələb edirdilər. Eyni zamanda cənab Volteri azərbaycanpərəst, türkpərəst adlandıraraq, ümumiyyətlə, onun hazırlayacağı hesabatın obyektiv olmayacağını iddia edirdilər.

Lakin ermənilərin canfəşanlığı boşa çıxıb. "Erməni deputatlar bütövlüklə reallığı inkar edərək, həyasızcasına bu qətnamənin ləğv edilməsi və bir daha bu mövzuya qayıdılmaması təklifini irəli sürdülər. Erməni tərəfinin bu sərsəm təklifi səsə qoyuldu və 14 səs lehinə, 24 səs isə əleyhinə olmaqla rədd edildi", - deyə komitənin iclasına iştirak eləmiş Azərbaycan nümayəndə heyətinin üzvü Elxan Süleymanov qeyd edib.

**Onun sözlərinə görə, üstəlik, Azərbaycan tərəfinin məruzəyə təklif etdiyi 3 düzəliş də qəbul edilib:** "Bu düzəlişlərdən biri məruzənin 4-cü bəndində "...Dağlıq Qarabağ regionuna dair münaqişə hələ də həll edilməmişdir" ifadəsinin "...Azərbaycanın işğal olunmuş əraziləri hələ də işğaldan azad edilməmişdir" ifadəsi ilə əvəz edilməsini ehtiva edir. İkinci düzəlişdə Dilqəim Əsgərov və Şahbaz Quliyevin qeyd-şərtsiz azadlığa buraxılması ilə bağlı "...işğalçı qüvvə olan Ermənistanın dərhal azad etməsini təmin etməyə çağırır" ifadəsi təklif edilmişdi. Nəhayət, irəli sürdüyümüz 3-cü düzəlişdə Ermənistan hakimiyyətinin məruzəçi ilə əməkdaşlıqdan imtina etməsinə "təəssüflənir" ifadəsinin "qətiyyətlə pislənir" ifadəsi ilə əvəzlənməsi əks etdirilir".

Deputat bu xüsusda onu da bildirib ki, Azərbaycan tərəfi Ermənistan nümayəndə heyətinin və erməniprəst qüvvələrin komitə iclasında qeyd edilən məruzənin qəbul edilməsinin qarşısını almaq üçün təxribat tərkibli müxtəlif vasitə və metodlardan istifadə edəcəyinə hazır olub.

*****

Qəbul edilən məruzə AŞ-PA-nın yanvar sessiyasında müzakirəyə çıxarılacaq. Məruzədə Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi və iyirmi ildən artıq müddət ərzində işğal altında saxlanılması öz əksini tapıb. Sənəddə BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin işğaldan azad edilməsini tələb edən qətnamələr xatırladılır, Avropa İnsan Hüquqları Məhkəməsinin "Çıraqov və digərləri Ermənistana qarşı" işinə dair 2015-ci il iyun tarixli qərarında Ermənistanın Dağlıq Qarabağ və ətraf ərazilərə nəzarət etməsinin sübuta yetirildiyi qeyd edilir, girov götürülmüş Dilqəm Əsgərov və Şahbaz Quliyevin Dağlıq Qarabağın tanınmamış "məhkəmələri" tərəfindən qanunsuz məhkum edildiyi bildirilir.

"Ermənistan silahlı qüvvələri və digər qanunsuz silahlı dəstələr Dağlıq Qarabağ və Azərbaycanın digər işğal olunmuş ərazilərindən çıxarılmalı və ATƏT-in Minsk Qrupu prosesi çərçivəsində Azərbaycanın bu ərazilərdə tam suverenliyi bərpa edilməlidir". Hesabat əsasında komitədə qəbul olunan qətnamə layihəsində belə deyilir.



Robert Volter

Sənəddə həmçinin Ermənistan və Dağlıq Qarabağ arasında dəhlizin, Azərbaycanın digər ərazisindən Naxçıvana çıxışın təmin olunması da daxil olmaqla, etimad tədbirləri ilə birlikdə təhlükəsizlik və daxili özünüidarəçiliyi təmin etmək məqsədilə Dağlıq Qarabağın müvəqqəti statusunu müəyyən etmək üçün Minsk Qrupunun plenar iclasının keçirilməsinə çağırılır.

**Təmas xəttindəki dinc əhalinin qəsdən hədəfə alınmasının qətiyyətlə pisləndiyi layihədə təəssüflə qeyd edilir ki, Dağlıq Qarabağ problemi digər beynəlxalq böhranların fonunda kənarda qalıb:** "Bir qədər də ləngimə bu "dondurulmuş" münaqişənin həllini daha da ağırlaşdıracaq. Hansı ki, bu münaqişə 2014-cü ilin əvvəlindən 100-ə yaxın insanın ölümünə səbəb olub və Avropa Şurasının iki üzv ölkəsi arasında real müharibəyə çevrilə bilər".

Komitə Azərbaycan və Ermənistanı 2001-ci ildə Avropa Şurasına üzv olarkən Dağlıq Qarabağ münaqişəsinin həlli üçün yalnız sülh xarakterli vasitələrdən istifadə etmək barədə üzərlərinə götürdükləri öhdəliyi yerinə yetirməyə çağıraraq, hər iki hökuməti silahlı qüvvələrdən istifadə etməkdən çəkinməyə səsləyir.

Sənəddə habelə Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərdə təhlükəsizliyi dəstəkləmək, məcburi köçkünlərin təhlükəsiz qayıdışı və yerləşdirilməsini təmin etmək, atəşkəs rejiminin pozulmasını araşdırmaq mexanizmini yaratmaq üçün ATƏT tərəfindən sülhməramlı qüvvələrin yaradılması çağırışı əksini tapıb.

*****

Buradaca yada salaq ki, Avropa Şurası artıq bir dəfə Ermənistanın Azərbaycan ərazilərini işğal eləməsini pisləyən və işğalçı qüvvələrin qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxarılmasına çağıran qətnamə qəbul edib. Yanvar sessiyasında bu mövqenin bir daha ortaya qoyulacağı ehtimalı böyükdür. Üstəgəl, təşkilatın məruzəçisinin Ermənistana və Dağlıq Qarabağa getməsini əngəllədiyi üçün rəsmi İrəvanın əlavə qınağa tuş gələcəyini ehtimal eləmək olar.

Belə bir ədalətli sənədin qəbulunu asanlaşdırmaq üçün vacibdir ki, həm də yerdə qalan iki ay yarımda rəsmi Bakı da bəzi gərəkən addımları atsın. Söhbət ilk növbədə Avropa Şurası ilə, bütövlükdə Qərblə münasibətləri gərginləşdirən addımlardan çəkinməkdən və nəhayət, siyasi məhbuslar probleminin aradan qaldırılması yönündə tədbirlərdən gedir.

# "Ermənilər cəbhəboyu əraziləri tərk edir"

## Müdafiə Nazirliyinin idarə rəisi: "Hərbi jurnalistlərə rütbələr veriləcək..."



**"Müdafiə Nazirliyi, ümumiyyətlə, Silahlı Qüvvələr haqqında yazarkən jurnalistlər ehtiyatlı olmalıdırlar. Çünki sözün gücü adətən silahın gücündən daha kəsərlidir". Bunu Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev deyib.**

Mətbuat Şurası, "Dinc Dünya" İctimai Birliyi və Müdafiə Nazirliyinin ekstremal situasiyalarda işləyən jurnalistlərin psixoloji və təcrübi öyrədilməsi mövzusunda birgə keçirdiyi tədbirdə çıxış edən R.Əliyev müdafiə naziri Zakir Həsənovun cəbhə bölgəsində işləyən jurnalistlərlə bağlı xüsusi əmrinin olduğunu xatırladıb: "Ermənistanın xəbər saytlarında da yazılır ki, ermənilər təhlükəni hiss edib cəbhəboyu əraziləri tərk edir. Bu bizim gördüyümüz işlərin nəticəsində mümkün olub. Vətənpərvərlik təkcə əlinə silah alıb səngərdə duran adam deyil, öz işini vicdanla görən hər bir şəxs vətənpərvərdir".

R.Əliyev deyib ki, gələcəkdə hərbi jurnalistlərə rütbələr verilə bilər: "Bizim fikrimiz var ki, bu sahədən yazan jurnalistləri müəyyən təlimlərə və kurslara cəlb edək və sonda imtahandan uğurla keçənlərə hərbi rütbələr verək".

YENİ MÜSAVAT
N 247 (6275) 6 noyabr 2015

**Bu ilin iyununda Bakıda keçirilən Avropa Oyunları başlamamışdan öncə "Atletlər kəndi"ndə baş vermiş xoşagəlməz olayın - avtobusun 3 xarici atletin üzərindən keçməsi işi üzrə istintaq davam edir. Bu günə qədər bəlli olan "Bakubus"un sürücüsü Vəli Əhmədovun elə həmin gün həbs edilməsidir. Olayın baş verməsindən aylar ötüb, istintaq orqanı baş vermiş olayla bağlı müfəssəl rəsmi açıqlama verməyə tələsmir.**



# "Atletlər kəndi"ndəki qəza ilə bağlı yeni şok bilgilər- bibioğlu kimdir?

## Nəqliyyat məsələləri ilə bağlı bütün işlər Eldar Mahmudovun bibisi oğlu olan "Bakı Sərnişin Nəqliyyatı" MMC-nin rəisi Elimxan Hacıyevin göstərişi ilə həyata keçirilib - qəzaya görə tutulanların adları

Bunun səbəbinə toxunmadan qeyd edək ki, qəzadan dərhal sonra olayın sosial şəbəkələrdə yayılan videosuna baxmış hər kəs sürücünün bu hadisəni bilərəkdən törətdiyinə əmin ola bilər. Hər kəs deyirdi ki, bu, qəsddir. Çünki sürücünün düz yolda getdiyi zaman səhvə yol verib belə bir qəza törətməsi inandırıcı görünmürdü. Bu arqumentləri inandırıcı edən bəzi faktlar da vardı. Oyunlar öncəsi ölkədə xoşagəlməz olayın baş verəcəyi gözləntisi, narahatlıq ab-havası hiss edilirdi. Hüquq-mühafizə orqanlarının xüsusi rejimdə çalışması, nəqliyyatın hərəkətinə tətbiq olunan məhdudiyyətlər bu gözləntilərə bir qədər də güc vermiş olurdu. Belə bir vəziyyətdə, oyunlara 1 gün qalmış "Atletlər kəndi"nin nəqliyyat deposunda avtobus düz yoldan çıxaraq atletlərin üzərindən keçdi.

Sonradan məlumat yayıldı ki, sürücü V.Əhmədov əvvəllər qəsdən adam öldürməyə görə həbsdə olub. Barəsində məhkəmə tərəfindən 10 illik azadlıqdan məhrumetmə cəzası çıxarılıb. Bu müddətin bitməsinə 5 il qalmış V.Əhmədov məhkəmə qərarı ilə azad olunub. Həbs olunan V.Əhmədovun oğlu Orxan Əhmədov qəzadan sonra mətbuata açıqlama verərək deyib ki, atasının qəzanı qəsdən törətməsi haqda məlumatlar yalandır. Atasının idarə etdiyi avtobusun əyləc sistemindəki problem üzündən belə bir qəza meydana gəlib. **"Avtobusun əyləc sistemində problem olub və sürücü problemi aradan qaldırmağa çalışarkən diqqəti yoldan yayınıb. Sükanı yığışdırmaq mümkün olmadığından avtobusu saxlaya bilməyib və nəticədə qəza baş verib"** - deyə, sürücünün oğlu bildirmişdi.

Qəzadan sonra yaranmış suallardan biri də sürücülərin seçilməsi, sürücülük qabiliyyətlərinin yoxlanılması ilə bağlı idi. Səriştəsiz sürücü belə bir mötəbər oyunlar zamanı sükan arxasına necə keçə bilmişdi?

Redaksiyamıza daxil olan məlumatda deyilir ki,



oyunlardan 2 ay əvvəl nəqliyyat naziri Ziya Məmmədovun qardaşı oğlu Rövşən Məmmədov "Bakı Sərnişin Nəqliyyatı" MMC-nin rəisi vəzifəsindən azad olunub. Yəni "Bakubus" rəhbərliyindən uzaqlaşdırılıb. Nazir öz qardaşı oğlunu işdən çıxarıb. Azərbaycanda görünməyən məsələdir, amma bu, oyunlar öncəsi baş vermişdi. Onun yerinə təyinat alan isə Elimxan Tarix oğlu Hacıyev olub. Bu şəxsin qohumluq əlaqələri haqda aldığımız məlumat bir çox məqamlara aydınlıq gətirməklə yanaşı, Ziya Məmmədovun qəzadan sonra postunda qalmasında bir növ xilas kəmərinə çevrilib.

E.Hacıyev o dövrdə milli təhlükəsizlik naziri olan Eldar Mahmudovun yaxın qohumu, bibisi oğludur. Qaynağımız deyib ki, bu təyinata qədər E.Hacıyev Nəsimi Su Kanalizasiya İdarəsinin rəisi olub. Onun təyinatından sonra oyunlar zamanı sərnişin daşıyacaq avtobusların sürücülərinin seçilməsinə, onların avtobioqrafiyalarının yoxlanılmasına başlanıb. Sürücülərin təlim keçməsi üçün büdcədən 1 milyon manat vəsait ayrılıb. Qaynağımız bildirib ki, seçilmiş sürücülərin avtobioqrafiyasının yoxlanılması zamanı səhlənkarlığa yol verilib. Vəli Əhmədovun bioqrafiyası lazımi səviyyədə nəzərdən keçirilməyib. Olay baş verəndən sonra isə onun barəsində avtoqəzaya görə cinayət işi olması üzə çıxıb. Tədbirlə əlaqədar işə götürülən sürücülərdən 500-1000 manat rüşvət alındığı da bildirilir.

Qaynağımız deyir ki, olaydan sonra Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin şöbə rəisi Hüseyn Salamov tutulub, xidmətin avtobus şöbəsinin rəisi Yunus Hüseynov, sərnişin və yükdaşımaların təşkili şöbəsinin rəisi Malik Məmmədov və lisenziya şöbəsinin rəisi *(ad-soyadını dəqiqləşdirə bilmədik-red.)* işdən çıxarılıblar.

H.Salamov nəqliyyat naziri Ziya Məmmədovun kadrıdır. Onun sürücülərin işə götürülməsi səlahiyyəti olmayıb. Bu və ümumiyyətlə oyunlar zamanı nəqliyyat məsələləri ilə bağlı bütün işlər Eldar Mahmudovun bibisi oğlu olan "Bakı Sərnişin Nəqliyyatı" MMC-nin rəisi Elimxan Hacıyevin göstərişi ilə həyata keçirilib.

Qaynağımız deyir ki, MTN-in Nəqliyyat Nazirliyinə təsiri çox böyük olub. E.Mahmudovun oyunlardan əvvəl Z.Məmmədovun qardaşı oğlunu Nəqliyyat Nazirliyinə tabe olan bir MMC-nin rəhbərliyindən çıxarıb bibisi oğlunu ora yerləşdirə bilməsi buna sübutdur. Digər tərəfdən, Z.Məmmədov olaydan əvvəl qardaşı oğlunun gəlirli bir sahənin rəhbərliyindən uzaqlaşdırılmasına mane ola bilmədiyinə təəssüflənsə də, qəzadan sonra buna sevinmiş olub. Eldar Mahmudov qohumu Elimxan Hacıyevi həmin posta təyin etdirməklə faktiki olaraq Z.Məmmədovu böyük bir bəladan kənarda qoymuş olub.

Bu məlumatlar onu deməyə əsas verir ki, E.Mahmudovun nazir kimi ona olan etimadı itirməsində bu cür təyinatlar rol oynayıb.

Qəzadan sonra işdən çıxarılanlar sırasında E.Hacıyev başda olub. Qaynağımız deyib ki, olaya aid videonun sosial şəbəkələrə düşməsinə səbəb olan 2 hüquq-mühafizə orqanı işçisi də tutduqları vəzifədən uzaqlaşdırılıblar.

Sürücü V.Əhmədova gəlincə isə mənbəmiz deyib ki, o, ilkin ifadəsində qəzanın ayağının əyləcə ilişməsi üzündən baş verdiyini açıqlayıb.

Sürücünün qəzada suçunun olub-olmamasını istintaq müəyyən etməlidir. İstənilən halda olayın baş verməsinə görə sürücünün suç ortağı onu işə götürən, onu təlimə cəlb edən vəzifəli şəxsdir. Əgər avtobuslarda hər hansı bir nasazlıq olubsa, yenə də bunun məsuliyyəti MMC rəhbərliyinin üzərinə düşür. Bütün bunlar istintaqın aydınlıq gətirməli olduğu məsələlərdir.

İş üzrə istintaqın nə yerdə olduğunu öyrənmək üçün DİN və Baş Prokurorluğun mətbuat xidmətləri ilə əlaqə saxladıq. Hər 2 qurumun mətbuat xidmətindən hər hansı bir açıqlama verilmədi.

Yada salaq ki, iyunun 11-də baş vermiş olayla bağlı Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətlərinin birgə məlumatında qeyd olunurdu ki, 2015-ci il iyun ayının 11-də, saat 8.30-da, I Avropa Oyunlarının "Atletlər kəndi"nin nəqliyyat deposunda, "Bakubus" Məhdud Məsuliyyətli Cəmiyyətə məxsus avtobus hərəkət zolağından çıxaraq piyadalar üçün səki ilə gedən Avstriyanın sinxron üzgüçülük üzrə yığma komandasının üzvləri Vanessa Sahinoviçə və Luna Pacerə bədən xəsarətləri yetirib.

Adları çəkilən idmançılar dərhal xəstəxanaya yerləşdirilərək onlara bütün zəruri tibbi yardımlar göstərilib, sonradan isə müalicələrini davam etdirmələri üçün Azərbaycan hökuməti tərəfindən Vyana şəhərinə göndərilmələri təmin edilib. Fakt üzrə Cinayət Məcəlləsinin 263.1-1-ci maddəsi (ehtiyatsızlıqdan zərər çəkmiş şəxsin sağlamlığına ağır zərər vurmaqla yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma) ilə cinayət işi başlanıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

# "Nar Şərab" restoranı işləyir

**Adı "MTN işi"ndə hallanan "Nar Şərab" restoranının satışa çıxarılması xəbəri yayılıb. Moderator.az-ın yazdığına görə, sabiq nazir Eldar Mahmudova məxsus olan restoranın adı "MTN işi"ndə hallanandan sonra restoran müştəri üzünə həsrət qalıb.**

"Yeni Müsavat"ın xəbərinə görə isə "Nar Şərab" restoranı əvvəlki kimi işləyir. Belə ki, restoranın saytında yerləşdirilən mobil nömrə aktivdir. Bu nömrə ilə əlaqə saxladığımız zaman bizə bildirildi ki, restoranın fəaliyyətinin dayandırılması ilə bağlı yayılan məlumatlar yalandır: "Biz fəaliyyətimizi dayandırmamışıq. Xidmət əvvəlki qaydada davam edir. Kim nə zaman istəsə buyurub gələ bilər".




❑ **Əli RƏİS**

# Erməni terrorçusunun başı aranı qatdı - keçmiş döyüşçülər üz-üzə gəldi

**Xətai Baxışov:** "Melkonyanı öldürən Kəlbiyev Şaiq, Mütəllibov Asəf və Musayev Əzəddin idi"
**İbad Hüseynov:** "O Xətaiyə sual ver, desin, bəs mənim əlimdəki kəllə kimindir?"
**"Əsgər"filminin rejissoru Etibar Məmmədov:** "MTN-in "Əsgər" filminin sponsorluğuna qətiyyən aidiyyəti yoxdur"


İbad Hüseynov


Xətai Baxışov

**Erməni terrorçu Monte Melkonyanın məhv edilməsi ətrafında uzun müddətdir davam edən müzakirələr yenidən dövriyyədədir. Bu günlərdə isə mövzunu aktuallaşdıran əsas məsələ MTN ətrafında baş verənlərlə bağlıdır. "Turan" agentliyinin məlumatına görə, bir neçə il əvvəl MTN-in sponsorluğu ilə "Əsgər" sənədli filmi çəkilib.**

Filmdə Qarabağ müharibəsi tarixini MTN-in uydurma xidmətləri istiqamətində təhrif etmək cəhdi edilib. **Sitat:** "Bunun üçün 1993-cü ildə Qarabağda məşhur erməni terrorist Monte Melkonyanın məhv edilməsi faktı seçilib. "Ayıq çekistlər bu mövzunu "özəlləşdirmək" qərarına gəliblər və İbad Hüseynovu - özünümüdafiə dəstələrindən birinin döyüşçüsünü buna cəlb ediblər. 2005-ci ildə İ.Hüseynov birdən-birə Melkonyanı məhz o öldürdüyünü, onun başını kəsdiyini xatırlayıb və sağda-solda bu fotoşəkli nümayiş etdirməyə başlayıb. İlk baxışda axmaq və gülünc ideya çox tezliklə fəal tərəfdarlar qazanıb, onlar bundan siyasi və maddi kapital əldə etməyi qərara alıblar. "Qəhrəmanı" mədh etməyə və tərifləməyə, gəncləri onu örnək almağa çağırmağa başlayıblar.

"Ayıq" MTN bundan öz payını almaq qərarına gəlib və İ.Hüseynovu MTN-dən terrorçunu məhv etmək tapşırığı almış kəşfiyyatçısı kimi təqdim edib. Nəticədə ölkə ictimaiyyəti uzun müddət yanlış məlumatlandırılırdı, Melkonyanı öz həyatları bahasına məhv edənlərin xidmətləri haqqında isə heç nə deyilmirdi. MTN-in və onun rəhbərliyinin bu siyasətinin səbəbi sadə idi - Melkonyanı qətlə yetirən döyüşçülər sıravi əsgərlər, PDM ekipajı idi və onları MTN-in xüsusi təyinatlıları kimi təqdim etmək alınmırdı. İbad Hüseynov isə məmnuniyyətlə Ceyms Bond rolunu oynamağı qəbul etdi. Amma nə MTN rəhbərliyi, nə də Hüseynov və onun himayəçiləri bir şeyi nəzərə almayıblar ki, Melkonyanın dəfni sənədləşdirilib. Dəfn kadrlarında onun başının yerində olduğu aydın görünür. Bütün bunlara baxmayaraq, MTN uzun müddət Melkonyanın Ağdam rayonunun Mərzili kəndində 708-ci briqadanın əsgərləri tərəfindən məhv edildiyini sübut edən materialları ilk dəfə araşdıran və dərc edənlərə təzyiq göstərməyə çalışıb. Bu materiallar MTN rəhbərliyinə təqdim edildikdə bu qurumun mətbuat xidmətinin rəhbəri jurnalisti ermənilərə işləməkdə, ictimai rəyi aldatmağa çalışmaqda və digər günahlarda ittiham etməyə başlayıb". **"Turan" bildirib ki, dövlət başçısının, Müdafiə Nazirliyi və MTN-in ünvanına çoxsaylı müraciətlər nəticə verməyib. Heç bir rəsmi orqan bu məsələyə nöqtə qoymağı lazım bilməyib:** ""258 nömrəli PDM-in ekipajı" adlı sənədli filmdə buna qismən nail olmaq mümkün olub. Bu filmdə Monte Melkonyanı kimin, necə və harada məhv etdiyi danışılır və göstərilir"..

**Mövzunu araşdırmaq üçün ehtiyatda olan polkovnik Xətai Baxışovla danışdıq. Polkovnik bunları dedı:** "2005-ci ildə jurnalist Şahin Hacıyev mənə yaxınlaşdı. Mən də nazirlikdən icazə aldım və dedilər ki, müsahibə verə bilərsən. 2005-ci ilədək Monte Melkonyanın adını heç kim çəkməyib, nə İbad, nə başqası. Sadəcə, Şahin müəllim jurnalist araşdırması aparırdı və üzə çıxartmışdı ki, Melkonyanı mənim döyüşçülərim öldürüb. Mən ona müsahibə verəndən iki həftə sonra İbadın müsahibəsi çıxdı. O vaxt məni Naxçıvana xidmətə göndərdilər. İbad Hüseynovgil 2008-ci ildə başqa bir materialı day.az-da, bir az da şişirdilmiş formada verdilər. Sonra isə onu saytdan çıxartdılar. 2010-cu ildə bunlar MTN-in əli ilə film çəkdirdilər. Bəhs olunurdu ki, guya MTN ona tapşırıq verib, daha nələr. Film yayılandan sonra valideynlər, mənim döyüş yoldaşlarım narazılıq etməyə başladı ki, niyə belə edirlər, nə üçün şəhidin gördüyü işi mənimsəyirlər?" X.Baxışov dedi ki, Melkumyanı onun əsgərləri gəbərdib. Üstəlik, adlar da çəkdi: "O dövrkü Kəşfiyyat Baş İdarəsinin rəisi general-leytenant Talib Məmmədov 1997-ci ildə məni nazirliyə, yanına çağırtdırdı və dedi kəşfiyyat məlumatları ilə bütün bunlar təsdiqlənib. Mən 2010-cu ildə Naxçıvandan dönəndən sonra gəlib internetə baxdım, gördüm nələr var. O vaxt valideynlər, döyüş yoldaşlarım hamısı mənim üstümə gəlirdilər. Çünki onların komandiriydim. Melkonyanı öldürən Kəlbiyev Şaiq, Mütəllibov Asəf və Musayev Əzəddin idi. Əvvəlki iki nəfər həmin döyüşdə, Melkonyanı öldürəndən yarım saat sonra şəhid oldular. Bu olub 1993-cü ilin 12 iyununda". **Xətai Baxışov Melkonyanın başını İ.Hüseynovun kəsmədiyini bildirdi:** "Filmdə bir cizgilərə baxın, sadəcə kiminsə başıdır. Ermənin in dəfni internetdə var. Bunlar bunu şişirtdilər, MTN də öz adını qaldırmaq üçün buna şərait yaratdı. Guya MTN tapşırıq verib. Ancaq belə bir şey olmayıb".


Etibar Məmmədov

**İbad Hüseynov özü isə "Yeni Müsavat"a açıqlamasında sözünün üstündə durduğunu bildirdi:** "Mən öz sözümü əməllərimlə demişəm, hər şey göz qabağındadır. Melkonyan başı da mənim əlimdədir. Erməni əksini deyirsə, çıxarıb Melkonyanın başını qoysun ortaya desin, sənin kəsdiyin baş başqasınındır. 12 iyun 1993-cü ildəki həmin əməliyyatda yanımda 12 azərbaycanlı döyüşçü olub. Onlar hadisənin şahidləridir. Biz ayın 10-da əməliyyata getdik. Ermənilər Ağcabədinin kəndlərinə girmişdilər, Qiyaməddinli kəndini almışdılar. Komandanlıq məni çağırdı, dedi ki, bir hadisə törədilməlidir ki, bu hücumun qarşısı alınsın. Mən də gəlib kəşfiyyatçılarımdam 12 nəfəri hazırladım, axşam saat 8-də getdik, ikinci gün Monteni öldürdük, üçüncü gün çıxdıq. Qardaş, tək mən olmamışam, 12 döyüşçü mənimlə birgə olub. Montenin başını kəsəndən sonra ermənilər iki saat "Avo" deyib qışqıra-qışqıra gəzirdi. Bəlkə ikinci Avo da var imiş, onu mən bilmirəm. Özü də məni Avo əməliyyatı çox maraqlandırmır. Mən o əməliyyatdan çox vacib dəlil-sübutlar gətirdim. Ermənilərin gizli qərargahları, postları haqda məlumatları gətirəndən sonra komandir əmr verdi, həmin nömrələri topla, raketlə vurub darmadağın etdilər. Mənim döyüşdüyüm ərazi sırf mənim qanım bahasına bu gün bizdədir, özü də ora Dağlıq Qarabağ ərazisidir. Əksini deyənlərə sual edin, onların döyüşdüyü hardadır? Bu məsələ 21 ildir mənim adımla birgə hallanırdı, nə oldu bunlar birdən göbələk kimi ortaya çıxıb əksini dedilər?"


Monte Melkonyan

**Keçmiş döyüşçü deyir ki, erməni terrorçusunun başını sonradan bir kənara tullayıb:** "Mən Montenin layiqli şəkildə cəzasını verdim, qışqırda-qışqırda onun başını kəsdim. Başını gətirdim, bir az saxladım, sonra sümüyünü də güllə ilə deşik-deşik eləyib atdım bir tərəfə, dedim indi get. Özü də Azərbaycan əsgərlərinin gözünün qarşısında. İstəsəniz, onlarla görüşün, deyin qardaş, hadisə necə olub? O Xətaiyə sual ver, desin, bəs mənim əlimdəki kəllə kimindir? Bəlkə o bilir. Mənsə deyirəm ki, bu kəllə Avonundur".

**"Əsgər" filminin rejissoru Etibar Məmmədov veteninfo.az-a maraqlı açıqlamalar verib. O deyib ki, MTN-in "Əsgər" filminin sponsorluğuna qətiyyən aidiyyəti yoxdur:** «Bunu tam məsuliyyətlə, filmin rejissoru olan bir şəxs kimi deyirəm. Bu filmi vətənpərvər bir insan maliyyələşdirib, ancaq adının çəkilməməsini istəyib. İkincisi, bu filmin keçmiş nazir Eldar Mahmudovla da heç bir əlaqəsi yoxdur. Sadəcə, filmdə 1993-cü il hadisələrinin canlı şahidi olmuş bir nəfərin müsahibə verməsi üçün MTN-ə rəsmi müraciət etdik. İcazə məhdudiyyətli idi, ona görə ki, o zaman əməliyyatçı olmuş həmin şəxs film çəkilən zaman da məxfi statusunda idi. Üzünü bağlamaqla və mövzuya aid cəmi iki sual vermək şərti ilə müsahibəyə icazə verildi. Çəkiliş bu şərtlərlə aparıldı. Buna görə filmin sonunda yaradıcı heyət Milli Təhlükəsizlik Nazirliyinə təşəkkürünü bildirdi. Vəssalam. Sponsorluq və digər ortaya atılan məsələlər ağ yalandır".

**"İbad Hüseynovun Monte Melkonyanı öldürməsini təsdiq edən başqa mənbələr varmı" sualına o belə cavab verib:** "Əlbəttə var. Çox mötəbər elm adamları, xarici ölkələrin strateji mərkəzləri, hətta ötən əsrin 90-cı illərinin əvvəllərində respublikada gedən proseslərdən xəbəri olan insanlar öz əsərlərində yazırlar ki, Monte Melkonyanı İbad Hüseynov öldürüb. Onlar bunu etməyə də bilərdilər. Bu məlumatı dəfələrlə yoxlayıb sonra kitablarına, məruzələrinə daxil ediblər. Ancaq təəssüflər olsun ki, Azərbaycanda yoxlanmamış, sifariş xarakterli yalanlar yazılır".

❑ **E.PAŞASOY**

## Ermənistanda həbs olunan azərbaycanlının məhkəməsi təxirə salınıb

**Ermənistanda saxlanılan Gürcüstan vətəndaşı, milliyyətcə azərbaycanlı Turqay Mikayılovun işi üzrə məhkəmə prosesi noyabrın 26-na təyin edilib. APA-nın "news.am"a istinadən verdiyi məlumata görə, bu barədə Lori rayonu məhkəməsindən bildiriblər. Məlumata görə, daha əvvəl noyabrın 2-də təyin olunan prosesin vaxtının dəyişdirilməsinə qərar verilib.**

İddiaya əsasən, Faxralı kənd sakini, 35 yaşlı T. Mikayılov 2015-ci il iyunun 23-də Lori rayonunun Dzyunaşox kəndi istiqamətində Gürcüstan-Ermənistan sərhədini qanunsuz keçib. Fakt üzrə "sərhədi qanunsuz keçmə" maddəsi ilə cinayət işi açılıb. Bu maddədə 100 min dram məbləğində cərimə və ya 3 il müddətinə kimi azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

Xatırladaq ki, T. Mikayılovun qohumu Bahar Mikayılova APA-ya onun yolu azaraq, Ermənistanın Cücə kəndinə keçdiyini bildirib. Həmin kənd sakinləri onu saxlayaraq Ermənistan sərhədçilərinə təhvil veriblər.

## Qəzaya uğrayan təyyarəyə görə məsuliyyəti Ermənistan daşıyır

**Noyabrın 4-də Cənubi Sudanda qəzaya uğramış AN-12 yük təyyarəsi Ermənistanın "Ala İnternational LTD" aviasiya şirkətinə məxsusdur. Novator.az xəbər verir ki, Tacikistan Nəqliyyat Nazirliyinin Mülki Aviasiya İdarəsinin rəhbəri Yusif Rəhmanov belə deyib.**

AN-12 yük təyyarəsi noyabrın 4-də Cənubi Sudanın Cuba hava limanından göyə qalxandan az sonra qəzaya uğrayıb. Təyyarənin göyərtəsində 6 heyət üzvü və 12 sərnişin olub. Heyət üzvlərindən 5 nəfəri Ermənistan, 1 nəfəri Rusiya vətəndaşıdır. Onların hamısı həlak olub. Sərnişinlərdən 3 nəfəri sağ qalıb. Hər 3-ü Cənubi Sudan vətəndaşıdır. Qəza zamanı təyyarənin düşdüyü yerdə də ölənlər olub. Son məlumatlara görə, qəza yerində ümumilikdə 36 nəfərin meyiti tapılıb.

Bundan əvvəl mediada AN-12 təyyarəsinin Tacikistanın özəl aviasiya şirkətinə məxsus olduğu haqda xəbərlər yayılmışdı. Məlumatı təkzib edən Tacikistan Nəqliyyat Nazirliyinin Mülki Aviasiya İdarəsinin rəhbəri Yusif Rəhmanov bildirib ki, qəzaya uğrayan təyyarə Ermənistanın "Ala İnternational LTD" aviasiya şirkətinə məxsusdur. Yusif Rəhmanov qeyd edib ki, bu təyyarə bir müddət Tacikistanın yükdaşıma ilə məşğul olan "Asia Airways" özəl aviasiya şirkətinin reyestrində olub. Ancaq "Asia Airways" şirkəti hazırda fəaliyyət göstərmir.

Yusif Rəhmanov vurğulayıb ki, müqaviləyə əsasən, AN-12 təyyarəsinin uçuşunda hər hansı nasazlığa görə bütün məsuliyyəti bu təyyarənin məxsus olduğu Ermənistan şirkəti daşıyır.

YENİ MÜSAVAT
N 247(6275) 6 noyabr 2015




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Həmd olsun Allaha ki, bizlərə Məhərrəm-Səfər əyyamını yaşatmağı, İmam Hüseyni (ə) tanıyan bir toplumda göz açmağı, mövcud olmağı və yaşamağı nəsib edib. Allahdan bu böyük nemətin şükrünü yerinə yetirmək tofiqatını nəsib etməsini diləyirik.**

# Kərbəla məktəbinin qalarlılıq fenomeni

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



## Tarixdə yer almış vücudi hadisələrin kulminasiyası

Məhərrəm-Səfər əyyamında aşiqlərin halında bir dəyişiklik olar. Bunun bir hissəsi iradəvi və əqlidir, bir hissəsi isə bizim fitrətimiz, ruhiyyələrimizlə bağlıdır. Hüseynsevərlərin daxilində bir istilik, hərarət var ki, Qiyamət gününə qədər bu hərarət özünü göstərər. Məhərrəm-Səfər əyyamı gələndən insanların halı, durumu dəyişər. Dünya tarixində çox hadisələr olub, çox məsələlər olub, çox təsirli mövzular olub. Acılı-şirinli çox qəhrəmanlıqlar olub. Amma, bunların içərisində heç biri hər il bu cür yüz milyonlar tərəfində yaşadılmır. Allah inayət etsə, bir neçə bəhsimizi Aşura hərəkatının əsas, strateji hədəfi barədə edəcəyik. Bu hərəkatın içərisində olan xüsusi aparıcı süjetlərdən danışacağıq. Bunlar danışılarkən başa düşüləcək ki, bu, bir tarixi olub-qurtarmış, coğrafi, hansısa məkana aid olan hadisə deyil. Bu, bəşər mövcudiyyətində olmuş vücudi hadisələrdəndir. Onların yekun nöqtəsini qoyan hadisələrdəndir. Bəşər tarixində yer almış vücudi hadisələrin kulminasiyasıdır. Məhz buna görədir ki, Aşura əsrlərdir yaşayır. Kərbəla məktəbinin qalarlılıq fenomeninin əsas izahını məhz buradan başlayaraq tədqiq edəcəyik.

## Aşura hərəkatının ali hədəfi

Biz diqqət etsək, görəcəyik ki, Həzrət Adəmlə (ə) bağlı xüsusi məsələləri bəşəriyyət davamlı olaraq xatırlayır. Həzrət Nuhla (ə) bağlı bəşəriyyət vaxtaşırı müəyyən məsələləri xatırlayır. Həzrət İbrahimin (ə) bütsındıran mahiyyətini, mövcudiyyətini davamlı olaraq xatırlayır. Həzrət Musanı (ə), Həzrət İsanı (ə), əziz Peyğəmbərimizlə (ə) bağlı bir çox hadisə və məsələləri bəşəriyyət xatırlayır. Bunlar bəşəriyyətin mövcudiyyəti ilə bağlı baş verən hadisələrdir. Bunlar insanların içərisindəki ruhiyyə ilə bağlı olan məsələlərdir.

Aşura məktəbinin, Aşura hərəkatının bu cür yaşanmasının əsas səbəbi budur ki, bu hərəkatın ali hədəfi fövqəl dərəcədə mübarək olub. Həzrət İmam Hüseyn (ə) öz yaxınları, əzizləri ilə bu yola çıxıb və əsas bir hədəfi var. Əba Əbdillahın (ə) Aşura məktəbinin ali hədəfi - dinin əhyasıdır, dinin diri saxlanmasıdır. O din ki, o İslam ki, əziz Peyğəmbərimiz (s) gətirib və o Həzrətə (s) qədər yüz iyirmi dörd min peyğəmbər (ə) gəlib, hər biri öz dövründə üzərinə düşən vəzifələri yerinə yetirib. Sonuncu Peyğəmbər (s) gəlib və müqəddəs Qurani-Kərimi gətirib. Qədir-Xumda özündən sonra İlahi vilayətin, yəni yerlə göyün bağlantısının davamiyyətini təmin edən İmamların (ə) elanını da edib. Qədir-Xum günündə bu elan olanda İslam dini, din olaraq kamala çatır, nemətlər tamamlanır, İslam din olaraq bəyənilmiş hala gəlib çatır.

İndi əziz İslam Peyğəmbərinin (s) vəfatından sonra, bir neçə onillik ərzində bir hadisələr baş verir ki, İslamın din olaraq mövcudiyyəti sıradan çıxa bilər. Həzrət İmam Hüseyn (ə) Aşura məktəbini, Aşura hərəkatını buna görə həyata keçirir ki, İslam din olaraq diri qalsın. Qiyamət gününə qədər bu dini öz mübarək qanı ilə sığortalayır. Aşura günündə baş verən istənilən cəhəti, istənilən hadisəni, istənilən mövzunu, hissəni götürsək, ona bu baxımdan yanaşsaq, Aşuranın haqqını yerinə yetirmiş olarıq. Amma əgər bunu unutsaq, Aşura hərəkatının hədəfinə diqqət etməsək, əsas strateji hədəfini unutsaq, bu hadisələr folklora, hekayələrə çevrilər, bu hadisələr əhəmiyyətini itirməyə başlayar.

İki cür əzadarlıq mümkündür. Birincisi budur ki, dünənə qayıdasan və dünəndə qalasan. İkincisi isə budur ki, Aşura hərəkatının içərisinə daxil olanda, əzadar olanda fərqində olasan ki, bütün bu hadisələr dinin əhyası üçün, dinin qorunub-saxlanması, yaşanması, Qiyamət gününə qədər İslamın diri qalması üçün baş verib. Aşura ona görə baş verib ki, Qiyamət gününə qədər bəşəriyyət İslamı diri olaraq yaşaya bilsin və İslamın din olaraq əziz Peyğəmbərin (s) gətirdiyi forma və mahiyyətdə qorunub saxlanması sığortalansın.

## Aşuranın yaşadılması onun ali hədəfinə uyğun olmalıdır

Allah etməsin ki, bizlər minbərlərdə, məclislərdə, rövzələrdə, mərsiyələrdə Aşuranın həqiqi hədəfini unudaq. Bu strateji hədəf unudulsa, gərək düşəcəyimiz bu vəziyyətin özünün yasını saxlayaq. Böyüklərimiz bunu zaman-zaman vurğulayıblar. Bildiriblər ki, bu gün bəşəriyyət bu mərasimləri o hala gətirdi, o qədər xurafatlar daxil etdi ki, yeni bir müsibət meydana çıxdı. Artıq bu yeni müsibətin özü üçün əzadar olmaq gərəkər. Nədən danışsaq, o ali hədəfi unutmalı deyilik. Əgər Həzrət Əbəlfəzlin (ə) məzlum halından danışacağıqsa, əgər uşaqların su axtararkən onların çəkdikləri iztirablardan danışacağıqsa, ali hədəfi xatırlamalıyıq. Əgər bu ali hədəfə diqqət etmədən danışsaq, biz bu yaşatmadan bəhrə apara bilməyəcəyik.

Bir var nurani məzlumiyyət. Bu məktəbin içərisində olan bütün məzlumiyyətlər nurani məzlumiyyətlərdir. İnsanlar haqq uğrunda, düzgünlük uğrunda, ali hədəflər uğrunda, İslamı yaşatmaq uğrunda ayağa qalxıb və İmamının (ə) arxasınca gedib və dinin əhyası uğrunda bütün bu qurbanları veriblər. Və bütün bu qurbanların verilməsində olan məzlumiyyətin bir nuraniyyəti var. Bir də var ki, biz bütün bu məsələləri bir kənara qoyaq və Aşura məktəbinə başqa cür yanaşaq. Ona görə də məclislərimizdə bu nöqtədə xüsusilə diqqətli olmalıyıq.

## Aşura hərəkatında birinci aparıcı xətt - imtina

Dedik ki, Aşura hərəkatının ali hədəfi - İslamın din olaraq əhyası, diri saxlanmasıdır. İslamın diri olaraq mövcudiyyətini Qiyamət gününə qədər sığortalamaqdır. Aşuranı təhlil edən mütəxəssislər, Kərbəla məktəbini hər mənada dəyərləndirən böyüklər deyirlər ki, Aşura o hadisələrdən, fenomenlərdəndir ki, onun dərinliyi var. Bu hadisənin bir neçə mövzusu, mahiyyəti var. Bunun layları, qatları var. Hərəkatın içərisinə diqqət etdikdə bir neçə sujetin, xəttin davam etdiyini görmək olur. Bunlardan biri və ən önəmlilərdən biri - imtina məktəbidir. Bu hərəkatın içərisində ən aparıcı xətlərdən biri - imtina fəlsəfəsidir. Yezid (lən) o qədər həddini aşır ki, bir mərhələyə yetişir ki, artıq yerlə göyün bağlantısının təminatçısı olan bir İlahi İmama (ə) da xəbər göndərir ki, o lənətliyə beyət etsin. Həzrət İmam Hüseyn (ə) Mədinədə bu beyətdən imtina edir. İmam Hüseynin (ə) bu imtinası - Tövhidin əməli halda yaşadılmasıdır. "Lə ilahə İlləllah"ın əməli, praktik yaşanmasıdır Əba Əbdillahın (ə) bu imtinası.

## Əba Əbdillah (ə) beyətdən imtinası ilə bəşəriyyətə imtina dərsi keçir

İmam Hüseyn (ə) beyətdən imtinasının fəlsəfəsini bəyan edərkən bildirir ki, əgər bu beyəti etsəydi, İslamın din olaraq "fatihə"si verilərdi. Əgər bu imtina olmasaydı, İslam din olaraq sıradan çıxardı. Deməli, Aşura hərəkatında aparıcı xətlərdən biri - imtinadır. Məkkədən Mədinəyə, Mədinədən Kufə boyunca olanlar, Kərbəlada baş verənlərin hamısında diqqət edəcəyimiz önəmli mövzulardan biri - imtinadır. Kərbəla məktəbi özündə imtinanı yaşatmaqla həm də bəşəriyyətə imtina dərsi keçir. Əgər bizlər imtina etməyi bacarmasaq, Allaha bəndə ola bilməyəcəyik. Həvayi-nəfsimizdən imtina etməyi bacarsaq, Allaha bəndə ola bilərik. Şeytanın (lən) vəsvəsələrindən imtina etməyi bacarsaq, Allah bəndəsi ola bilərik. Mövcud olduğumuz toplumun içərisində olan, sırınan stereotiplərdən imtina etməyi, bütləşmiş, doqmalaşmış günün bütlərindən imtina etməyi bacarsaq, Allah bəndəsi olmağa müvəffəq olarıq. İmtina fövqəl dərəcədə mühüm məsələdir.

Əgər biz bilmək istəyiriksə Aşurada harada olardıq, daxilimizə baxaq. Baxaq biz öz daxilimizdə hansı tərəfdəyik? İmtina etməyi bacarırıqsa, Aşurada Əba Əbdillahla (ə) birlikdə olardıq. Nəfs boş durmur. Nəfs tam mənada fəaliyyətdədir və insan nəfsin istəklərini nəzarətə almağı bacarmasa, imtina etməyi bacarmasa, onun mövcudiyyəti ardan gedər.

Kərbəlada olan bütün mövzulara bu gün və sabahla baxılmalıdır. Kərbəlaya, Aşuraya İslamın diriliyi baxımından yanaşılmalıdır. Fərdi həyatımızda nə qədər imtina edə bilirik? İctimai həyatımızda nə qədər imtina edə bilirik? Mənfiliklərdən, eybəcərliklərdən, haramlardan, boş-boş məsələlərdən, ğinadan, ləhv məsələlərdən, dünyanın vurğunluğuna aparan cürbəcür məsələlərdən nə qədər imtina edə bilirik? Rahatlığımızdan, konformizmə meylliliyimizdən, rahatlıq axtarmağımızdan, güzəranımızı rahatlıqla yaşamaq istəyimizdən nə qədər imtina edə bilirik? Bunlar mühüm məsələlərdir. İmam Hüseyn (ə) əzadarları bu sualları özlərinə verməlidir. Əba Əbdillah (ə) aşiqləri məhz bu ruhiyyəyə malik olmalıdır.

## Aşura hərəkatında digər aparıcı xətlər

Aşura hərəkatında görünən ikinci aparıcı xətt - yaxşılıqlara dəvət və pisliklərdən çəkindirmədir. Bütün Aşura hərəkatı boyunca bu, hiss olunur. Yaxşılıqlara dəvət və pisliklərdən çəkindirmə Kərbəla məktəbində aparıcı xətlərdən ikincisidir. Kərbəla məktəbində Həzrət Əba Əbdillahın (ə) buyuruşlarından da görünən üçüncü aparıcı xətt - ümmətin islahı və fəsadla mübarizədir. Buna görə də, biz əgər Kərbəla məktəbinə İslamın din olaraq diri saxlanması hədəfindən yanaşırıqsa, qayıdıb baxmalıyıq ki, həyatımızda yaxşılıqlara dəvət və pisliklərdən çəkindirmə ilə bağlı vəziyyət nə yerdədir. Günümüzdə ümmətin islahı, fəsadla mübarizə istiqamətində vəziyyət nə yerdədir.

Kərbəla məktəbində dördüncü aparıcı xətt - kufəlilərin dəvəti və bununla bağlı İmamın (ə) üzərinə gələn vəzifədir. Belə ki, kufəlilərin dəvəti ilə, İmam Hüseynin (ə) üzərinə xüsusi imaməti həyata keçirməklə bağlı vəzifə gəlir. O Həzrət (ə) bu vəzifəni həyata keçirməyə cəhd etməlidir. O, ümmətin İmamıdır və ümmətin bir önəmli qrupu olan kufəlilər yezid istibdadından qurtulmaq iradəsini ifadə etdikdə, İmamın (ə) üzərinə bununla bağlı vəzifə gəlir.

Kərbəla məktəbində bu dörd aparıcı xətt var. Bunları nəzərə alaraq Kərbəla səhnələrinə diqqət etsək, anlayarıq ki, o kəsilən qollar nə üçün kəsilir, balaca Rüqəyyə (s.ə) nə üçün o müsibətləri yaşayır, Həzrət Əli Əkbərin (ə) müsibəti nə üçündür, Həzrət Əli Əsğər (ə) Kərbəla səhrasına niyə gəlib, Həzrət Zeynəb (s.ə) niyə əsir düşüb. Bunları anlamaq üçün öncə vaqiənin kökünü, səbəblərini bilməliyik. Gələn bəhslərimizdə dörd aparıcı xətt barədə geniş danışacağıq, inşəallah.

Kərbəlanın bütün səhnələri dərslərdən ibarətdir. Buyuruşlarda gəlir ki, hər il Məhərrəmin ilk günündən Aşura gününədək Şəhidlər Ağasının (ə) parça-parça olmuş köynəyi İlahi ərşdən asılar və bütün aləmi qəm bürüyər. Bütün varlıq aləmini düşündürən, kədərləndirən bir məsələdir.

## Əba Əbdillahın (ə) Kərbəla torpağına yetişməsi

Mətinlərdə gəlir ki, İmam Hüseyn (ə) ətrafı ilə məhərrəm ayının ikinci günündə Kərbəlaya çatır. Bu, səhralıqda bir yer idi. Həmin məkana çatanda Həzrətin (ə) atı daha hərəkət etmədi və dayandı. İmam Hüseyn (ə) istədi ki, at hərəkətini davam etdirsin, amma at hərəkətini davam etdirmədi. Əba Əbdillah (ə) buyurdu ki, başqa bir at gətirsinlər. Beləcə yeddi dəfə atları əvəzlədilər, amma heç biri yerindən hərəkət etmirdi. Həzrət İmam Hüseyn (ə) soruşdu: "Bu yerin adı nədir?". Dedilər: "Qaziriyyə". İmam Hüseyn (ə) soruşdu: "Başqa adı yoxdurmu?". Dedilər: "Neynəva". İmam Hüseyn (ə) soruşdu: "Başqa adı yoxdurmu?". Dedilər: "Şatul-Fərat". İmam Hüseyn (ə) yenə də soruşdu: "Başqa bir adı yoxdurmu?". Dedilər: "Kərbəla". O vaxt İmam (ə) ürəkdən bir ah çəkdi, kövrəldi və buyurdu: "And olsun Allaha, bura Kərbəla torpağıdır. And olsun Allaha, bu məkanda bizimlə olan kişiləri öldürəcəklər, xanımlarımızı, uşaqlarımızı əsir aparacaqlar. Ey comərdlər! Atlardan yerə enin ki, bizim qəbirlərimizin yeri buradadır".

**Allahım, bizlərə Məhərrəm-Səfər əyyamında bu eşq karvanında olmağı nəsib et!**

**Allahım, həyatımızın hədəfini Əba Əbdillahın (ə) ali hədəfinə uyğun et!**

**Allahım, mövcudiyyətimizi Hüseyni (ə) et! Allahım, aqibətimizi Hüseyni (ə) et!**

# Toyqabağı müayinə zamanı aşkarlanan xəstəliklərin yayılma səbəbləri...

## Adil Qeybulla: “Həmin xəstəliklərin siyahısı hələ tam deyil”

**Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə qaydasına uyğun olaraq iyunun 1-dən bu günə kimi nikaha daxil olmaq istəyən 63 800 nəfər tibbi müayinədən keçib. Bunu mətbuata açıqlamasında B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun direktoru Zöhrə Əlimirzəyeva bildirib. Məlumata görə, bu şəxslərin 4 213 nəfəri talassemiya daşıyıcısıdır. 32 cütlükdə, yəni cütlüyün hər ikisində də talassemiya olduğu məlum olub. Həmçinin son beş ayda 45 nəfərdə İİV infeksiyası, 161 nəfərdə isə sifilis qeydə alınıb.**



Bəs bu xəstəliklərin yaranma səbəbi nədir? “Əgər məcburi tibbi müayinə olmasaydı, o zaman bu xəstəliklər geniş yayılacaqdı” demək mümkündürmü?

**Tibb elmləri doktoru, professor Adil Qeybulla** bildirdi ki, irsi xəstəlik daşıyıcıları da ailə qurmalıdır: “Talassemiya irsi bir xəstəlikdir. Yəni genlə bağlı bir məsələdir. Əvvəllər bu müayinə yox idi deyə heç kim talassemiya daşıyıcısı olduğunu bilmirdi və xəstə uşaqlar doğulurdu. Amma indi talassemiya daşıyıcılarını ayırmaq olmaz. Hətta talassemiya xəstəsi olan adam da ailə qurmalıdır. Bu baxımdan hamiləlik zamanı müəyyən şərtlərə əməl edilsə, xəstə uşağın doğulmasının qarşısını almaq olar. Amma aşkarlanan digər xəstəliklərə gəlincə, məsələn, sifilis cinsi yolla keçən xəstəlikdir. Onun aşkarlanması önəm kəsb edir. Ən azı ona görə ki, bu xəstələr vaxtında müalicə alırlar və xəstəliyin başqasına keçməsinin qarşısı alınır. Digər tərəfdən, həmin xəstəliklərin siyahısı hələ yetərli deyil. Yəni tam müayinə etmək üçün bəzi xəstəliklərin, xromosom, irsi yolla keçən xəstəliklər də var ki, onların da həmin paketə salınması düzgün olardı. Ən azı yeni ailə quranlar bunu bilərdilər və müəyyən profilaktik tədbirlər görərdilər”.

Elə insanlar olur ki, xəstəliklərindən məhz məcburi tibbi müayinə zamanı xəbər tuturlar. Bu da ondan irəli gəlir ki, il ərzində ən azı 4 dəfə müayinə olunmaq əvəzinə, 4 ildə 1 dəfə həkimə gedirik. Səbəb kimi isə pulsuzluğu, ya da vaxt kasadlığını bəhanə gətiririk".

**Maraqlıdır, niyə azərbaycanlılar yalnız ölüm yatağında olanda həkimə üz tuturlar? Bunun psixoloji bir əsası varmı, yoxsa sırf maddiyyatla bağlı bir məsələdir?**

**Psixoloq Dəyanət Rzayev insanların müayinədən keçməməsinin səbəbinin psixoloji amillə bağlı olduğunu dedi:** “Bunun birinci səbəbi bizim daxilimizdə ciddi kompleksin olmasıdır. Azərbaycanlılar hansısa restoranda oturub yeyib-içməyi, bahalı maşına, geyimə daha çox pul xərcləyir, nəinki sağlamlığına. Müəyyən kateqoriya insanlar var ki, həkimə pul xərcləməyi itki hesab edir və düşünür ki, dünyaya bir dəfə gəlirsə, yeyib-içib kef eləməlidir. Digər bir səbəb tibbi sığortanın olmamasıdır. Həmçinin həkim müayinəsinə getməməyimizin bir səbəbi də ”mən heç vaxt xəstəliyə yoluxmaram" düşüncəsinin olmasıdır. Bu da insanların daxilindəki ciddi kompleksdən irəli gəlir. Ümumiyyətlə, qohum evliliklərinə görə irsi xəstəliklərin sayı artıb. Mən deyərdim ki, insanların həkimə getməməsinin, müayinədən keçməməsinin səbəbi psixoloji problemlərlə bağlıdır. İnsan var ki, həkimə özünü yoxlatdırmır, deyir pulum çıxır, amma gedib bahalı maşın alır. Bu, kompleksdir. Düzdür, bu fikirlə razıyam ki, bizdə kasıb insan həddindən artıq çoxdur. Amma burada söhbət yalnız kasıb adamlardan getmir. Avropalılar heç vaxt geyimə bizim qədər pul vermir. Onlar daha çox sağlamlıqlarına diqqət edirlər".

❑ **Günel MANAFLI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**
**Əlaqə telefonu: (050) 343-59-72**

**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**
**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**
**Tel: (050) 614-40-24**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34




# Saxta ətir iddiasına reaksiya gəldi

## Hüquqşünas: ““İdeal”da satılan ətirlər saxta deyil və hər birinin uyğunluq sertifikatı var"

**“Yeni Müsavat”ın ötən sayında “İdeal”da saxta ətirlər satılır" sərlövhəli yazı dərc olunub. Redaksiyamıza daxil olan şikayətlər əsasında hazırlanan yazıda “İdeal” da satılan ətirlərin iyinin qalmadığı və qiymətlərinin baha olduğu qeyd edilib.**

Yazı dərc edildikdən sonra “İdeal”ın hüquqşünası İsa İsmayılov redaksiyamızla əlaqə saxlayaraq şikayətlərin əsassız olduğunu bildirib. İ. İsmayılov deyib ki, “İdeal”da satılan ətirlər saxta deyil və hər birinin uyğunluq sertifikatı var: “Hər hansısa bir ətirin saxtalığını müəyyən edən qurumlar və ekspertiza var. Biz mallarımızın saxta olmadığını rəylər almaqla sübut edə bilərik. Bütün ətirlərimizə Gigiyena və Epidemialogiya Mərkəzindən uyğunluq sertifikatı verilib. Hər bir şəxsin haqqıdır ki, yaxınlaşıb ətirlərin uyğunluq sertifikatına baxsın. İstənilən ətri alıb ekspertizadan keçirə və onun saxta olmadığını aydınlaşdıra bilərsiniz. Saxta ətir odur ki, normativlərə cavab verməsin. Tualet suyunun normativləri ayrı, parfüm suyunun normativləri ayrı olur. Onun tərkibində əgər zərərverici maddələr aşkar olunsa saxtalıqdan söhbət gedə bilər. Amma ətrin iyinin yarım saat və ya bir saat qalmasının başqa səbəbləri var. Ola bilər mənim geyimim sintetik olsun və ətrin iyini saxlamasın. Yaxud da yun koftaya ətir vurulsun və 7 saat saxlasın. Ətirin iyinin qalmasında hava şəraitinin də təsiri var. Ətrin iyinin tez uçması onun saxta olması demək deyil. İdealdakı ətirlərin heç biri saxta deyil və əlimizdə bunu sübut edən sertifikatlar var”.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 247 (6275) 6 noyabr 2015

# Pandaların dilini öyrəndilər



Çinin Siçual ştatındakı yeni mərkəzdə pandaların çıxardığı 13 səsin hansı məna verdiyi məlum olub. "Sinhua" xəbər agentliyinin məlumatına görə, projenin rəhbəri Vang Hı Min verdiyi açıqlamada pandaların "acam", "xoşbəxt deyiləm", "bəyəndim" mənasını verən bir neçə səs çıxardıqlarını bildirib.

Minin sözlərinə görə, pandalar böyüyərkən analarının çıxardıqları civildəmə, kükrəmə, bağırma, mızıldama kimi səslərlə duyğularını ifadə etməyi öyrənirlər. Əgər bir panda quş səsi çıxarırsa, bu, balaları üçün narahat olduğunu, yüksək səslə bağırarsa, tanımadığı birinin ona yaxınlaşdığını göstərir. Erkək cinsindən olan pandalar başqa bir pandanı sevdiyi zaman quzu kimi mələyir.

## Ən güclü onluq



ABŞ-da nəşr olunan "Forbes" jurnalı növbəti dəfə Rusiya prezidenti Vladimir Putini dünyanın ən nüfuzlu adamı seçib. Jurnal öz qərarını Putinin dünyada istədiyini edə bilən və heç kimə hesabat vermək məcburiyyəti olmayan nadir insanlardan olduğunu sübuta yetirməyə davam etməsi ilə əsaslandırıb. Ölkəsindəki iqtisadi böhranın Putinə heç bir şəkildə təsir etmədiyini vurğulayan jurnal, Rusiya prezidentinə xalq dəstəyinin iyun ayında 89 %-ə çatdığını qeyd edib.

"Oktyabrda Putin Suriyadakı İŞİD mövqelərini bombardıman edərək və Suriya prezidenti Bəşər Əsədlə görüşərək ABŞ və NATO-nun zəif görünməsinə səbəb oldu və Rusiyanın ölkə xaricindəki nüfuzunu yenidən gücləndirdi", - deyə jurnal bildirir. 75 nəfərlik siyahının 2-ci pilləsində Almaniyanın kansleri Anqela Merkel, 3-cü pilləsində isə ABŞ prezidenti Barak Obama qərar tutub. Siyahıda müvafiq olaraq 4-cü yerdə Roma Papası Fransisk, 5-ci yerdə Çinin prezidenti Si Szinpin, 6-cı yerdə "Microsoft"un təsisçisi Bill Qeyts, 14-cü yerdə Səudiyyə Ərəbistanının kralı Salaman bin Abdulaziz bin Səud, 18-ci sırada İranın ali dini lideri Əli Xamneyi, 19-cu sırada facebookun təsisçisi Mark Zukerberq, 46-cı sırada Şimali Koreyanın prezidenti Kim Çen İn, 49-cu sırada isə Misirin prezidenti Abdulfəttah əs-Sisi qərarlaşıb.

Məlumat üçün bildirək ki, bundan əvvəlki illərdə Vladimir Putin 2 dəfə "Forbes" jurnalında dünyanın ən nüfuzlu insanları siyahısına liderlik edib.

# Qarnından canlı heyvan çıxdı

İngiltərədə baş verdiyi iddia edilən bir hadisə eşidənləri şoka salıb. İngiltərə mediasında yayılan məlumatlara görə, 14-15 yaşlı qızda hamiləlik əlamətləri başlayandan başına gəlməyən qalmayıb. Qarnı şişən qız özünü yorğun hiss etdiyini dediyi zaman anası ondan şübhələnməyə başlayıb. Yeniyetmə qız anasına hamilə olmadığını desə də anası ona inanmayıb. Zaman keçdikcə qızın qarnının böyüməsi anasını qorxudub və onu həkimə aparıb. Ultrasəs müayinəsi zaman həkimlər şoka düşüblər. Sən demə, qızın qarnındakı şişkinliyin səbəbi orada canlı heyvanın yaşaması ilə bağlı imiş. Əməliyyat edilən qızın qarnından canlı xərçəng çıxarılıb.

Hadisənin gerçək səbəbi isə daha sonra ortaya çıxıb. Belə ki, ailə üç-dörd ay əvvəl okean kənarındakı qəsəbələrin birinə tətilə gedib. Xərçəng yumurtaları mikroskopik ölçüdə olduğu üçün gənc qız üzərkən həmin yumurtalardan birini udub. Milyonda bir halda olsa da həmin yumurta qızın bədənində böyüyərək yaşamağı bacarıb.

## Lak çəkmək kökəldir



Lak insanı kökəldən amillərdən biri ola bilər. Belə bir nəticəyə ABŞ-ın Duke Universitetində aparılan araşdırmalar zamanı gəlinib. Qadınları təəccübləndirən araşdırma zamanı 3 min lak incələnib və onların yarısından çoxunda trifenil fosfat adlı maddə olduğu aşkarlanıb. Həmin maddə insan orqanizmindəki hormonları pozaraq yağ toplanmasına, bu da qadınların kökəlməsinə səbəb olur.

Mütəxəssislər plastik və mebel istehsalı zamanı istifadə edilən bu maddənin lakların daha davamlı olması üçün onların tərkibinə əlavə edildiyini bildirirlər. Bu maddə qısa müddətdə qana qarışaraq hormonların işini pozmaq gücündədir.

## Qoroskop (6 noyabr)




**QOÇ** - İxtiyarınızda olan bu təqvimdə qarşınızda ciddi öhdəliklər duracaq. Bu səbəbdən ulduzlar aktivliyinizi artırmağın vacibliyini vurğulayır. Amma sövdələşdiyiniz şəxslərlə mübahisəyə həvəs göstərməyin.

**BUĞA** - Şəxsi büdcənizdə ciddi artım olacağına inanmalısınız. Boş məsrəflərə xərc çəkməkdənsə bir az qənaətcil olun. Yaxın dostlarınıza və qohumlarınıza qarşı unutqan olmayın.

**ƏKİZLƏR** - Yaxşı olar ki, günortaya qədər mənzil şəraitində istirahət edəsiniz. Çünki həmin ərəfədə hansısa uğur gözlənilmir. Nahardan sonra isə vaxtınızı ailə-sevgi məsələlərinə həsr edir.

**XƏRÇƏNG** - Ümumən gərgin gün olduğundan mənəvi zövq almaqdan bir qədər məhrum ola bilərsiniz. Çünki rastlaşdığınız situasiyalar, xüsusən də səhhətiniz ürəkaçan olmaya bilər. Amma büdcənizdə artım mümkündür.

**ŞİR** - O qədər də səmərəli təqvim deyil. Bir tərəfdən səhhətinizlə bağlı xoşagəlməzliklər, digər tərəfdənsə münaqişələrə cəlb olunmağınız ovqatınıza mənfi təsir göstərə bilər.

**QIZ** - Neçə müddətdən bəri daxili sıxıntılarınıza səbəb olan bəzi problemlərin həllinə işıq düşəcək. Qərarlarınızda qətiyyətli olun. Saat 13-16 arası istənilən riskli işdən uzaq olun.

**TƏRƏZİ** - Bu təqvim bürcünüz üçün əlamətdar olacaq. Əlaxüsus da fəaliyyətlə bağlı proseslərdə vəziyyət xeyrinizə dəyişəcək. Atacağınız hər bir addımı yalnız özünüz müəyyənləşdirin.

**ƏQRƏB** - İlk növbədə maliyyə məsələlərində uğurlarınız mümkündür. Bu səbəbdən də nəzərdə tutduğunuz bütün pul haqq-hesablarını həll etməyə çalışın. Qeybətdən və kindən uzaq olun.

**OXATAN** - Bütün vaxtınızı ailə-sevgi münasibətlərinə həsr edin. Digər insanlarla münasibətləri isə maksimum məhdudlaşdırın. Əks təqdirdə, ovqatınız korlana bilər. Uzaq səfərlərə çıxmayın.

**OĞLAQ** - Təzadlı vaxtdır. Proseslərin inkişafı gah müsbət, gah da mənfi istiqamətdə cərəyan edə bilər. Belə məqamlarda hadisələrə obyektiv qiymət verin. Yeganə dincliyiniz səfər və qonaqlıqlarda mümkündür.

**SUTÖKƏN** - Olduqca məhsuldar ərəfədir. Məhz bu amili nəzərə alıb qarşınıza qoyduğunuz planların icrasında aktivliyi əldən verməməlisiniz. Axşam maraqlı görüşlərdə iştirakınız mümkündür.

**BALIQLAR** - Hazırkı gərginliyinizi dəf etmək üçün ürəyinizə yaxın dostlarınıza müraciət edin. Bu arada bəxtiniz daha çox ailə-sevgi münasibətlərində gətirə bilər. Ulduzlar pul da vəd edir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qarışqa yeməklə sağ qaldı



Avstraliyada yaşayan Reginald Fogerdy adlı kişi ov zamanı yolunu itirərək dostlarından xeyli uzaqlaşıb. İki həftə əvvəl baş vermiş hadisədən sonra hər kəs 62 yaşlı kişini tapmaq üçün səfərbər olub. Uzun müddət davam edən araşdırmalar nəticəsində Foggerdy Laverton qəsəbəsinin 160 kilometr uzaqlığında tapılıb. Yaşlı kişi ov zamanı dəvə vursa da, yanında kəsici alət olmadığından onu kəsə bilməyib və ac qalıb. İlk 4 gün yemək və su içmədən yaşamağa çalışsa da 5-ci gün bir qarışqa yuvası tapıb və onları yeyərək həyatda qalmağı bacarıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300